RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 77 (8393) CÜMƏ AXŞAMI, 23 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin mükəmməl xilas modeli

**Bütün dünya artıq bir neçə aydan çoxdur ki, koronavirus imtahanı verir. Topsuz-tüfəngsiz atəş açan bu müharibədə Yer kürəsinin bütün qitələri "gözəgörünməz düşmən"lə vuruşmağa məhkumdur.**
**Koronavirus - silahsız-sursatsız baş verən üçüncü dünya müharibəsidir.**
**Koronavirus - XXI əsrin biomüharibəsidir.**

Bu müharibənin strategiyası da, taktikası da dünyada baş vermiş müharibələrin hamısından fərqlidir. Əgər indiyə qədərki müharibələrdə hücum taktikası əsas hesab olunurdusa, biomüharibədə müdafiə olunma, təcrid edilmə qələbəyə aparan əsas yolu müəyyən edir. Başqa xalqların ərazilərini, sərvətlərini ələ keçirməyi əsas hədəf kimi seçən digər müharibələrdən fərqli olaraq, biomüharibənin əsas strategiyasını insanı məhv etmək təşkil edir. Koronavirus insanı hədəfə aldığı üçün bütün insanlıq bu bəşəri bəla ilə mübarizədə birləşmişdir.

Koronavirus - sosial, ictimai-siyasi, irqi, dini fərqləri nəzərə almadan insanlığa qarşı ünvanlanmış total müharibədir. Ona görə də koronavirusa qarşı mübarizədə bütün insanlıq vahid amal ətrafında birləşmişdir. Məhz buna görədir ki, koronavirus - Ümumdünya Səhiyyə Təşkilatını biomüharibənin baş qərargahına çevirmişdir. Bu "müharibədə" ölkələrin qələbəyə nail ola bilməsi dövlət rəhbərlərinin təkcə silahlı qüvvələrə deyil, bütün xalqa vaxtında əmrlər verməyi bacaran Ali Baş Komandan missiyasını icra etməklə bərabər, həm də müəyyən edilmiş proqramın mütləq həyata keçirilməsini təmin etməsindən çox asılıdır.

Bu gün bütün xalqımız adından böyük qürur hissi ilə bəyan etmək olar ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yer kürəsini bürümüş koronavirus biomüharibəsində fövqəladə bacarıq nümayiş etdirmiş, ölkəsini və xalqını xilas etmək vəzifəsini həyata keçirmiş qalib Baş Komandandır. Əvvəla, Azərbaycan Respublikasının Prezidenti dünya ölkələrinin demək olar ki, mütləq əksəriyyətindən qabaq biomüharibə küləyinin əsməkdə olduğunu, bu müharibənin mahiyyətini və miqyasını dərhal müəyyən etmişdir. Buna görə də Azərbaycan Respublikası biomüharibənin qarşısını almaq üçün düşünülmüş qabaqlayıcı tədbirlərin həyata keçirilməsi baxımından dünya ölkələrini qabaqlamışdır.

Prezident İlham Əliyevin qəti tapşırıqları əsasında qısa müddətdə ali və orta təhsil müəssisələrində tədris prosesinin dayandırılması, ölkə miqyasında genişmiqyaslı dezinfeksiya tədbirlərinin təşkili, tərəddüd etmədən ölkəmizin sərhədlərinin bağlanmasına dair qonşu dövlətlərlə danışıqların aparılması və qəti qərarların qəbul edilməsi koronavirus biomüharibəsində gələcək qələbənin əldə olunmasının əsas təminatına çevrilmişdir. Paralel olaraq dövlət başçımızın rəhbərliyi ilə pandemiya dövrünün çağırışlarına uyğun olaraq yeni işlək strukturların yaradılması və bir sıra dövlət qurumlarının fəaliyyətinin yenidən qurulması, onların əlaqəli və operativ işlərinin təşkili koronavirusla mübarizənin bütün cəbhə xətti boyu aparılmasına meydan açmışdır.

Dövlət mexanizmi çevik və operativ, fasiləsiz və ahəngdar işləmək baxımından Azərbaycan Respublikasının Prezidenti qarşısında məsuliyyətlə imtahan vermişdir. Cənab Prezidentin tapşırığı əsasında Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargah biomüharibə şəraitində sözün həqiqi mənasında operativ şəkildə çalışaraq, zəruri qərarları və tələbləri müəyyən etmiş, vaxtında Azərbaycan xalqına çatdırmışdır. Operativ Qərargah vasitəsilə hazırlanıb xalqa ünvanlanmış icazə sistemləri və qadağa qaydaları pandemiya şəraitində insanların həyat fəaliyyətinin idarə olunması və tənzimlənməsində mühüm rol oynamışdır.

*Ardı 4-cü səh.*

## Prezidentlər koronavirus pandemiyasına qarşı mübarizə ilə bağlı məsələləri müzakirə ediblər

**Aprelin 22-də Albaniya Respublikasının Prezidenti İlir Meta Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Söhbət zamanı Azərbaycanla Albaniya arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Dövlət başçıları Trans-Adriatik qaz boru kəməri layihəsinin uğurla reallaşdırıldığını bildirərək, bunun həm ölkələrimiz arasında əlaqələrin, həm də beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyini vurğuladılar.

Telefon danışığı zamanı İlir Metanın Azərbaycana səfəri məmnunluqla xatırlandı, bu səfərin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmi qeyd edildi.

Prezident İlham Əliyev və Prezident İlir Meta koronavirus pandemiyasına qarşı mübarizə ilə bağlı məsələləri müzakirə etdilər.

Albaniya Prezidenti Azərbaycan Prezidentini ölkəsinə rəsmi səfərə dəvət etdi.

Dəvət minnətdarlıqla qəbul edildi.

***Prezidentin Mətbuat Xidməti***

## Milli birlik və həmrəyliyin mənəvi gücü

### Xalq inanır ki, Prezident İlham Əliyevin müdrik qərarları ilə Azərbaycan qlobal pandemiyadan minimum zərərlə qurtulacaq

Dünyanın bir çox böyük dövlətlərinin "taclı bəla"nın ağır fəsadları qarşısında naəlac qaldığı bir məqamda Azərbaycanda artıq pandemiya ilə mübarizədə müsbət dinamika müşahidə olunmaqdadır. Koronavirusa yoluxanların sayının sağalanların sayından az olması bunu deməyə əsas verir.

Eyni zamanda Prezident İlham Əliyevin uzaqgörən siyasəti ilə bu təhlükənin önlənməsi, əhalinin sağlamlığının qorunması, həmçinin karantin müddətində xalqın sosial rifah halının yaxşılaşdırılması istiqamətində düşünülmüş addımlar atılıb. Görünən odur ki, Azərbaycan dövləti bu ağır sınaqdan az itkilərlə çıxacaq.

Pandemiyanın ilk anından "Biz birlikdə güclüyük!" devizini səsləndirərək dövlətin bütün resurslarını səfərbər edən cənab İlham Əliyevin tarixi xidmətlərini xalq çox yüksək dəyərləndirdi. Prezidentin ünvanına hətta xarici ölkələrdən soydaşlarımızın göndərdiyi minnətdarlıq məktublarına nəzər yetirdikdə bunun bir daha şahidi oluruq.

*Ardı 2-ci səh.*

## Azərbaycan yenə nümunə göstərir

### Prezident İlham Əliyevin "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" bəyanatı bu çətin günlərdə də əməli tədbirlərlə özünü təsdiqləyir

**Koronavirus (COVID-19) dünyaya ayaq açıb yayılandan bəri özü ilə təkcə dərd-bəla, ölüm-itim, böhran gətirməyib, həm də artıq beş aydır meydan sulamasına baxmayaraq, çoxsaylı sualları cavabsız qoyub.**

Həmin cavabsız suallar isə onun mənşəyindən tutmuş yayılma coğrafiyasınacan olan ən müxtəlif və ən müəmmalı sahələri əhatə edir. Və çox qəribədir ki, tanınmış virusoloqlar, infeksionistlər bir yana, hətta bu xəstəliyin təhlükəsi barədə ilk həyəcan qaldıran, onun qarşısının alınması istiqamətində görülən və görüləcək tədbirləri koordinasiya edən Ümumdünya Səhiyyə Təşkilatı da bu sualların cavablarını bilmədiklərini boyunlarına alırlar.

Mütəxəssis olmadığımız üçün bu acizliyin səbəbini bilmirik. Ola bilsin koronavirusun COVID-19 növü yeni olduğu üçün mütəxəssislər onu öyrənməyə macal tapmayıblar. Mümkündür ki, elm lazım olandan artıq kommersiyalaşdığı üçün insan sağlamlığının qayğısına qalmaqdan çox qazanc dalınca qaçır. Bəlkə də bir çoxlarının güman etdikləri kimi, koronavirus böhranı kimlərəsə hansısa məqsədlərinə çatmaq üçün lazımmış. Nəinki deyə, hətta ehtimal edə bilmərik. Amma bütün hallarda bu gün koronavirusdan qorunmaq qədər aktual olan cavabsız suallara yaxın, yaxud uzaq günlərdə aydınlıq gətiriləcəyinə zərrə qədər də şübhəmiz yoxdur.

*Ardı 4-cü səh.*



## Azərbaycanın elektrik enerji sistemi getdikcə daha da güclənir

**Bu günlərdə "Azərenerji" ASC-nin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılışı olmuşdur.**

Belə ki, 1986-cı ildə istifadəyə verilən və o vaxtdan təmir edilmədiyinə görə yararsız vəziyyətə düşən bina əsaslı təmir olunaraq müasir memarlıq üslubunda və yüksək səviyyədə yenidən qurulmuşdur. Binanın ətrafında abadlıq işləri görülmüş və yaşıllıq sahələri salınmışdır.

*Ardı 6-cı səh.*

## Paşinyanla kilsənin savaşı böyüyür

### Yerevanda artıq katolikosun istefası tələb olunur

Ermənistanda hakimiyyətlə kilsə qarşıdurmasının getdikcə dərinləşməsi müşahidə olunur. Bu hal Ermənistan katolikosu II Qareginin sabiq prezident Robert Koçaryana azadlıq tələb etməsindən sonra yenidən aktuallaşıb.

Xatırladaq ki, bu günlərdə Qaregin erməni mediasına açıqlamasında Robert Koçaryan barəsində həbs-qətimkan tədbirinin dəyişdirilməsinin zəruriliyini bildirib: "Ermənistanın ikinci prezidenti Koçaryana gəldikdə, həkimlərin onun sağlamlığı ilə bağlı peşəkar fikirlərinə toxunaraq, ədalət mühakiməsinin həyata keçirilməsi ilə yanaşı bütün qabaqlayıcı üsul və tədbirlərin görülməsini, o cümlədən vəziyyətin daha da gərginləşməməsi üçün ehtiyat tədbirinin dəyişdirilməsini vacib sayırıq".

### Kilsəyə qarşı informasiya hücumu

Katolikosun bu açıqlaması Ermənistan hakimiyyətinin xoşuna gəlmədi və gözlənildiyi kimi, Nikol Paşinyan komandası informasiya hücumu təşkil etdi. Müxtəlif hökumət rəsmiləri katolikosu qınayan açıqlamalar verdilər. Ermənistan parlamentinin vitse-spikeri Alen Simonyan hətta bildirdi ki, minlərlə Ermənistan vətəndaşı artıq çoxdan katolikosun dəyişdirilməsini tələb edir: "Mən deyərdim ki, Ermənistanın minlərlə vətəndaşı artıq çoxdan katolikosun dəyişdirilməsini tələb edir. Düşünürəm ki, Qaregin illərlə səssiz qalıb, bu gün isə pulu bol olan Koçaryanın ilkin həbsinin dəyişdirilməsinin zəmanətçisi kimi çıxış etmək qərarına gəlib".

*Ardı 6-cı səh.*

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

## Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

# Milli birlik və həmrəyliyin mənəvi gücü

### Xalq inanır ki, Prezident İlham Əliyevin müdrik qərarları ilə Azərbaycan qlobal pandemiyadan minimum zərərlə qurtulacaq

*Əvvəli 1-ci səh.*



#### Dünya ölkələri üçün örnək

Kəlbəcər rayon ictimaiyyəti adından dövlət başçısına minnətdarlıq məktubu ünvanlayan Azərbaycan Respublikası Ağsaqqallar Şurasının və Yazıçılar Birliyinin üzvü, "Aşıq Şəmşir Mədəniyyət Ocağı" İctimai Birliyinin sədri, 87 yaşlı **Qənbər Qurbanov** yazır ki, bəşəriyyət üçün təhlükə yaradan koronavirus xəstəliyinin Azərbaycanda geniş yayılmasının qarşısının alınması üçün cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mübarizə tədbirləri xalqda böyük qürur hissi yaradıb.

Çünki dünyanın ən inkişaf etmiş ölkələrinin, müasir səhiyyə sistemlərinin belə qarşısında aciz qaldığı bu xəstəlik Prezidentin uzaqgörənliklə başlatdığı tədbirlər sayəsində ölkəmiz üçün faciəvi nəticələrə gətirib çıxarmadı. Bütün bunlara görə xalq dövlət başçısına minnətdarlığını ifadə edir və Azərbaycanın bu sahədəki mübarizəsinin dünya ölkələri üçün örnək olduğunu qürur hissi ilə qarşılayır. Məhz görülən tədbirlərin nəticəsidir ki, son günlər ölkəmizdə bu xəstəliyin gedişatı ilə bağlı müsbət dinamika müşahidə olunur, sağalıb evlərinə dönən xəstələrin sayı hər gün artır.

Müəllif qeyd edir ki, bu xəstəliklə mübarizə məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargahın, eyni zamanda Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, "Yeni klinika" tibb müəssisəsinin və Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılışları, sosial qayğıya ehtiyacı olan vətəndaşlara maddi yardımların göstərilməsi, bu problemin həlli ilə bağlı keçirilən müşavirələr, dövlət strukturlarına verilən tapşırıqlar bir daha Azərbaycan Prezidentinin bu sahədəki siyasətinin qətiyyətli, ardıcıl və davamlı olmasının sübutudur: "Görülən bütün bu tədbirlər, Sizin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çətin anlarda hər zaman xalqla birliyi, bütün fəaliyyətinizin xalqımızın bu ağır sınaqdan üzüağ çıxmağına yönəlməsi insanlarda yüksək əhvali-ruhiyyə yaradıb.

Bu çətin günlərdə bütün xalqımız Sizin "Biz birlikdə güclüyük!" çağırışınızın müsbət əhvali-ruhiyyəsi və mənəvi gücü ilə yaşayır", - deyən 87 yaşlı ağsaqqal hesab edir ki, Prezidentin həyata keçirdiyi tədbirlər sayəsində xalq tezliklə bu ağır xəstəlikdən ən az itki ilə qurtulacaq.

"Dünyanı cənginə almış COVID-19 xəstəliyinə qarşı bütün vətəndaşlarımızı öz ətrafınızda birləşdirərək Siz xalqımızı, o cümlədən də bizi xəstəliyə qarşı mübarizəyə səfərbər etmisiniz. Mən nəvə və nəticələrim daxil olmaqla ailəmin 75 nəfərlik üzvü adından Sizə dərin minnətdarlığımı bildirirəm. Bu bəladan itkisiz və üzüağ çıxmaq üçün qurban kəsib, namaz qılmaqla Allaha dualar edirəm". Bu fikirlər isə Lənkəran rayon sakini **Saleh Cəfərovun** Prezidentə ünvanladığı məktubda yer alır.

Laçın rayonundan məcburi köçkün olan **Türkanə Xaspoladzadənin** minnətdarlıq məktubunda isə qeyd edilir ki, dünyanın bəşəri problemə çevrilən koronavirusun ağuşunda olduğu bu çətin dövrdə xalqın rifahı naminə Prezidentin imzaladığı sərəncamlar Azərbaycan xalqının sağlamlığının, əmin-amanlığının, hər zaman olduğu kimi, yenə də dövlət başçısı üçün ən önəmli məsələ olduğunu təsdiqləyir.

#### Milli həmrəylik bu günədək müşahidə edilməyən səviyyədədir

Bakıdan **Musa Nəbioğlu** və **Elmira Rəfailovanın** minnətdarlıq məktublarında isə vurğulanır ki, Azərbaycan bu gün dünyanı bürümüş koronavirusdan ən az əziyyət çəkən, bəşəriyyətin bəlasına çevrilmiş bu pandemiyaya qarşı ən səmərəli mübarizə aparan ölkələr arasında ön sıralarda dayanır. Son günlərdə isə sağalanların sayının yeni yoluxanların sayından dəfələrlə artıq olması, ölüm faizinin dünyada ən aşağı səviyyədə olması bir daha onu sübut edir ki, cənab Prezidentin bilavasitə göstərişi əsasında bu istiqamətdə çox ciddi tədbirlər həyata keçirilir. Xalqımız və eləcə də dünya ictimaiyyəti bir daha şahidi oldu ki, Azərbaycanda əhalinin sağlamlığı və sosial rifah halı dövlətin çox böyük önəm verdiyi prioritet sahədir və ölkəmiz yarana biləcək hər cür fors-major hallara hazırdır: "Dünyanın belə çətin, qarışıq günlərində heç bir ölkədə heç bir lider Sizin atdığınız qətiyyətli addımları atmır. Siz bütün insanları düşünür, onların qayğısına qalırsınız. Sizinlə fəxr edirik, cənab Prezident və inanırıq ki, müdrik qərarlarınızla bu bəladan minimum zərərlə qurtulacağıq".

Ağdamdan **Məhəmməd İsmayılov** və başqalarından daxil olan minnətdarlıq məktublarında deyilir ki, ölkəmizdə milli həmrəylik bu günədək müşahidə edilməyən səviyyədədir. Bu, Prezident İlham Əliyevin xalqa olan diqqət və qayğısına cavabdır: "Tövsiyələrinizə, çağırışlarınıza səs verən vətəndaşlar çətin günlərdə dövlətimizin ətrafında sıx birləşdilər. Hamı bir-birinə, xüsusilə aztəminatlı ailələrə kömək göstərir. Siz eyni zamanda sahibkarlara da böyük dəstək verirsiniz. Bizlərə də karantin şəraitində müxtəlif yardımlar edilir. Bütün bunlara görə Sizə təşəkkür edir, "Çox sağ olun!" deyirik. Tanrı Sizi qorusun".

Füzuli rayonundan **Ləman Əliyeva,** Xızıdan **Sevər Şərifova,** Gəncə şəhərindən **Hicran Məmmədovanın** dövlət başçısına ünvanladıqları məktublarda vurğulanır ki, heç bir ölkə, heç bir şəxs bu virusdan sığortalanmayıb. Ona görə də hamı bu məsələyə ciddi yanaşmalı, cəmiyyətimiz də öz üzərinə düşən vəzifələri yerinə yetirməli, dövlət tərəfindən görülən məhdudlaşdırıcı tədbirləri anlayışla qarşılamalı və onlara əməl etməlidir.

Dünyanı aciz vəziyyətə salan, səhiyyəsi, iqtisadiyyatı güclü inkişaf etmiş ölkələri belə çətinliklər qarşısında qoyan koronavirusla mübarizədə Prezident İlham Əliyevin xalqın sağlamlığı üçün uzaqgörən qərarları insanların inam və güvənini bir az da artıraraq daha da möhkəmləndirdi: "Xalqın hər bir nümayəndəsinə göstərdiyiniz qayğı, əsasən də yaşlı insanların sağlamlığının qorunması üçün verdiyiniz qərarlar xalqımızın mənəvi dəyərlərinə verdiyiniz yüksək qiymətin daha bir nümunəsidir. Siz bir daha sübut etdiniz ki, hər bir vətəndaşın Prezidentisiniz. Sizin "Biz birlikdə güclüyük!" çağırışınız xalqımızın milli birliyinə stimul oldu, pandemiyaya qarşı mübarizədə həmrəyliyə səslədi".

#### Azərbaycan xaricdəki soydaşlarımıza da yardım edir

Bakıdan **Murad Məmmədov,** Saatlıdan **Lətif Şimşəkov,** Qobustandan **Baba Mahmudzadə,** Siyəzəndən **Balabəy Balabəyov** və Ucardan **Zaur Eyvazovun** Prezidentə ünvanladıqları minnətdarlıq məktublarında da dövlət başçısının əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində qəbul etdiyi qətiyyətli qərarlar çox yüksək qiymətləndirilir.

"Dünya ölkələrinin iflic vəziyyətdə olduğu bu günlərdə bütün qüvvələri səfərbər edərək ölkəmizi qoruduğunuza, həm də xaricdə yaşayan azərbaycanlılara yardım etdiyinizə görə çox sağ olun. Azərbaycan Sizinlə yenilməzdir. Allah Sizi və ailənizi qorusun". Bu fikirlər isə Türkiyənin Adana şəhərindəki soydaşımız **Vüsalə Abdulovanın** məktubunda öz əksini tapıb. Vüsalə xanım son dövrlər Prezidentin tapşırığı ilə Azərbaycan hökumətinin Türkiyədəki soydaşlarımıza göstərdiyi maddi və mənəvi yardımları yada salır: "Azərbaycan Respublikasının Diaspora ilə İş üzrə Dövlət Komitəsinə müraciət edərkən "Azərbaycan dövləti arxanızdadır" sözlərini eşitdim. Oğlum zəruri dərman preparatları ilə pulsuz təmin olundu. Bu, həm də mənə böyük mənəvi dayaq oldu. Çətin günlərdə özümü yalnız hiss etmədim.

Sevimli dövlət başçımız, Siz siyasətinizin mərkəzində məhz xalqımızın dayandığını bir daha nümayiş etdirdiniz. Hazırda oğlumun müalicəsi davam edir. Bu ağır günlərimdə mən hər an Sizi yanımda hiss etdim".

Bütün bunlar bir daha təsdiq edir ki, xalq hər zaman Prezident İlham Əliyevin dəstəkçisidir və dövlət başçısını özünə alternativsiz lider kimi qəbul edir. Ötən həftə keçirilən rəy sorğusunda xalqın Prezidentə olan inamının 94,7 faiz olması bunu bir daha təsdiqləyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Öncə insanların sağlamlığıdır

### Dövlətin həyata keçirdiyi islahatlar pandemiya dövründə də əhalinin köməyinə gəlir

**Koronavirus deyilən bir kabus bu gün dünyanı dolaşmaqdadır. Bu bəla artıq hər yerə yayılıb. Bütün ölkələr kimi Azərbaycan da bu pandemiya ilə mübarizə aparır.**

Lakin bir sıra dövlətlər vaxtında lazımi tədbirlər görmədiyi üçün çox sayda insanın həyatına son qoyulub. Amma təqdirəlayiq haldır ki, dövlətimizin vaxtında gördüyü zəruri tədbirlər sayəsində Azərbaycan koronavirusla mübarizədə dünyaya nümunə göstərir. Qabaqlayıcı tədbirlər nəticəsində biz bu bəladan az itkilərlə çıxmağı qarşıya məqsəd qoymuşuq.

Prezident İlham Əliyevin apardığı səhiyyə islahatları bu gün koronavirusla səmərəli mübarizəyə imkan verir. Hazırda COVID-19-la mübarizə aparmaq üçün 20 xəstəxana fəaliyyət göstərir. Xarici ölkələrdən yüksək texnologiyaya malik laboratoriyalar gətirilib. Bunun sayəsində ölkəmizdə koronavirusa yoluxma halları vaxtında aşkar edilir. Həmin laboratoriyalarda indiyədək 86 mindən çox test aparılıb. Testlərin sayına görə dünyada 30-cu yerdəyik. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycan dövlətinin bu sahədə gördüyü işləri yüksək qiymətləndirərək digər ölkələrə nümunə göstərir.

Prezident İlham Əliyevin aprelin 14-də bu ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfransda öncə əhalinin sağlamlığından, koronavirusla mübarizədən bəhs etməsi onu göstərir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində, həmişə olduğu kimi, yenə də Azərbaycan vətəndaşı dayanır. Prezident həmin videokonfransda insanların sağlamlığının onun üçün böyük önəm daşıdığını bildirərək demişdir: "Bir daha demək istəyirəm ki, bizim üçün əsas məsələ vətəndaşların sağlamlığı, insanların həyatıdır. Bu günlərdə mənə ünvanlanan yüzlərə, minlərlə məktublar, elektron məktublar, mesajlar göstərir ki, vətəndaşlar bizim atdığımız addımları yüksək qiymətləndirirlər".

Azərbaycan vətəndaşlarının dövlətin gördüyü işlərə belə yüksək qiymət verməsi təsadüfi deyil. İndi hamı televiziya vasitəsilə dünyadakı mənzərəni görür. Həmişə həsəd apardığımız, imkanlarını həddindən artıq dəyərləndirdiyimiz Qərb ölkələrinin səhiyyəsinin nə vəziyyətdə olduğu da göz qabağındadır. İndi hamıya aydın oldu ki, həyata keçirilən uğurlu islahatlar sayəsində Azərbaycan fors-major vəziyyətə daha çox hazırdır. Həmçinin məlum oldu ki, Azərbaycan həkimləri daha fədakar, gaha qayğıkeş və daha məsuliyyətlidirlər.

Burada bir önəmli məsələyə toxunmaq da yerinə düşər. Dövlətin tabeliyində olan mərkəzləşdirilmiş sanepidemiya stansiyaları belə hallarda mühüm rol oynayır.

Koronavirus pandemiyası dünyada səhiyyə sisteminin vəziyyəti barədə müzakirələrə yol açdı. Artıq hamı gördü ki, bu sistemin ifrat liberallaşması doğru deyil. Səhiyyə sistemində strateji sahə kimi dövlətin aparıcı rolu qorunub saxlanmalıdır. Özəl xəstəxanalar koronavirusla mübarizə aparmaq iqtidarında deyil. Çünki burada hər şey gəlirlə ölçülür. Sahibkar öz mənfəətini hər şeydən üstün tutur, onun üçün əsas meyar gəlirlilikdir. Koronavirusla mübarizədə ABŞ, İngiltərə, İtaliya, Fransa, İspaniya kimi ölkələrin aciz vəziyyətdə olması buna nümunədir. Avropanın siyasi mərkəzi olan Belçikada isə əsl insanlıq dramı yaşanır. 11 milyon nəfər əhalisi olan bu ölkədə 5 mindən çox insan ölüb. Həkimlər isə xəstələrin müraciətinə laqeyd yanaşırlar.

Dünyanı bürüyən pandemiya həm də siyasətçilər və dövlət rəhbərləri üçün əsl sınaq oldu. Həmişə bizə insan haqlarından "dərs verən" Qərb ölkələri insanların yaşamaq haqqını qorumaq üçün vaxtında lazımi tədbirlər görmədilər. Nəticədə on minlərlə insan həyatını itirdi. Təsəvvür edin ki, insanları müalicə etməli olan həkimlər qoruyucu kostyumlar və maskalar olmadığı üçün yoluxub ölürlər. Ən sadə yolla hazırlana biləcək maskanın istehsalını belə təşkil etmirlər. Onu da günlərlə gözləyib xarici ölkələrdən ixrac edirlər.

Azərbaycanda bu tibbi ləvazimata ehtiyac yarandığı andan Prezidentin göstərişi ilə maska istehsalına hazırlıq görüldü, tezliklə müvafiq müəssisə fəaliyyətə başladı. Odur ki, bu gün apteklərdə kifayət qədər yerli istehsal olan maska var.

Azərbaycan vətəndaşları koronavirus bəlasından az itki ilə çıxacağımıza əmindirlər. Hər kəs görür ki, dövlət vətəndaşın sağlamlığı, onun həyatının qorunması üçün bütün tədbirləri görür. Mövcud xəstəxanaların gücü koronavirusla mübarizə aparmaq üçün yetərlidir. Lakin dövlət əlavə olaraq 10 modul tipli xəstəxananın inşasına başlayıb. Bu onu göstərir ki, Qərbdən fərqli olaraq Azərbaycan dövləti vətəndaşının sağlamlığı üçün istənilən qədər vəsait xərcləməyə hazırdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



# "Siz bir daha əsl liderlik missiyası nümayiş etdirdiniz"

**Qlobal pandemiyaya çevrilən koronavirus infeksiyası Azərbaycandan da ötmədi. Lakin respublikamızda virusun yayılmasının qarşısının alınması və ağır nəticələrə səbəb olmaması üçün ilk gündən təxirəsalınmaz tədbirlər həyata keçirildi.**

Bütün bunları ilk gündən nəzarətdə saxlayan Prezident İlham Əliyevin təşəbbüsü ilə problemin vətəndaşların sosial rifahına və iqtisadi həyatımıza çətinlik yaratmaması üçün müvafiq proqramlar da həyata keçirilməkdədir.

Azərbaycan ictimaiyyəti bütün bu tədbirləri böyük razılıqla qarşılayaraq təqdir edir. Bu günlərdə ölkənin hər yerindən dövlət başçısına ünvanlanan məktublarda vətəndaşların səmimi təşəkkürləri ifadə olunur. Eyni zamanda bu məktubların hər birində xalqımızın nümayiş etdirdiyi milli həmrəyliyi görürük. Bakı şəhərindən Arif Hüseynzadə adına 20 saylı məktəb-liseyin şagird və müəllimləri də ölkə başçısına minnətdarlıq məktubu ünvanlayıblar.

Bu gün bəşəriyyətin ağır sınaq qarşısında olduğunu, pandemiya təhlükəsindən sərhədlərin bağlandığını, nəticədə bir çox ölkələrdə səhiyyənin, təhsilin, iqtisadiyyatın və digər sahələrin çətin vəziyyətə düşdüyünü, hətta inkişaf etmiş dövlətlərin belə koronavirus qarşısında aciz qaldığını qeyd edən məktəb-liseyin direktoru, Əməkdar müəllim Səadət Veysova dövlət başçısına xitabən yazır: "Cənab Prezident, məhz Sizin qətiyyətli iradəniz və təşəbbüskarlığınız sayəsində ilk gündən ölkəmizdə koronavirusun geniş yayılmasının qarşısını almaq məqsədilə vətəndaşlarımızın sağlamlığının qorunmasına xidmət edən bütün zəruri, qabaqlayıcı addımlar atıldı. Azərbaycan vətəndaşlarının sağlamlığının qorunması, pandemiyadan zərər çəkən bütün təbəqələrin sosial qayğı ilə əhatə olunması, xaricdə olan soydaşlarımıza diqqət göstərilməsi, həmçinin tibb işçilərinə xüsusi qayğının göstərilməsi ilə bağlı həyata keçirdiyiniz strateji əhəmiyyətli fəaliyyətlər həm Azərbaycan xalqının təhlükəsizliyinə zəmin yaradır, həm də bu çətin günlərdə onlara mənəvi və maddi dəstək verir. Bütün bunların nəticəsidir ki, Azərbaycan koronavirusla mübarizədə beynəlxalq səviyyədə təqdir olunan fəaliyyət ortaya qoyur".

Səadət Veysova daha sonra yazır: "Bu günlərdə Siz bir daha əsl liderlik missiyası nümayiş etdirdiniz. Bir daha təsdiq etdiniz ki, xalqımızın layiqli rəhbərisiniz. Çünki hər bir məsələdə vətəndaşların yanındasız. Biz də təhsil işçiləri olaraq həmişə Sizin yanınızdayıq. Bu gün üçün müəyyənləşdirib uğurla tətbiq etdiyiniz idarəçilik modelinin alternativsiz olduğunu anlayırıq. Sizin "Biz birlikdə güclüyük!" çağırışınız xalqımızın bütün tarixi dövrlərdə birlikdə olmasının nə qədər vacib olduğunu göstərən aydın baxışın ifadəsidir.

Bu narahat günlərdə biz təhsil işçiləri öz məsuliyyətimizi anlayır və karantin günlərində də şagirdlərimizi onlayn vasitələrlə tədrisə cəlb edirik. Qarşımızda duran əsas məqsəd Sizin və hörmətli Birinci vitse-prezident Mehriban xanım Əliyevanın verdiyi tövsiyə və tapşırıqları indiki şəraitdə də layiqincə yerinə yetirməkdir. İnanırıq ki, respublikamızın hər yerində təhsil işçiləri öz vəzifə borclarını əsl vətəndaşlıq missiyası ilə həyata keçirirlər. Çünki təhsil işçilərinin öz vəzifələrini layiqincə yerinə yetirmələri həm də Sizin liderliyinizlə xalqımızın milli həmrəyliyinin təcəssümü və "Biz birlikdə güclüyük!" çağırışınızın uğurla reallaşmasının göstəricisidir.

Hörmətli cənab Prezident, biz Sizinlə sıx birlik və həmrəylik nümayiş etdirir, Azərbaycanımız naminə həyata keçirdiyiniz məsuliyyətli və şərəfli fəaliyyətinizdə Sizə daha böyük və yeni-yeni uğurlar arzulayırıq. Allah Sizi və öz şərəfli missiyası ilə ölkəmizin inkişafına layiqli töhfələr verən Birinci vitse-prezident Mehriban xanım Əliyevanı qorusun! Biz Sizlərlə fəxr edirik!"

Məktəb-liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi Həmidə Sanıyevanın məktubunda qeyd olunur ki, Prezident İlham Əliyevin operativ şəkildə verdiyi tapşırıqlar nəticəsində koronavirusun geniş yayılmasının qarşısı alınır. Bu, ilk növbədə, məhz Prezidentin vətəndaşlara diqqət və qayğısının həmişə ön planda olmasını göstərir.

"Siz və Birinci vitse-prezident Mehriban Əliyevanın məktəbimizin açılışı zamanı kollektivimiz qarşısında qoyduğunuz tapşırıq və göstərişləri əzmlə yerinə yetirməyə çalışırıq. Məktəbin açılışına gəlməyiniz kollektivimizi daha da ruhlandırmış və yeni-yeni nailiyyətlər qazanmağa sövq etmişdir. Üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirərək Sizin etimadınızı doğruldacağıq.

"Biz birlikdə güclüyük!" çağırışınıza biz təhsil işçiləri də qoşularaq belə bir şəraitdə şagirdlərin təhsildən geri qalmaması üçün onlayn şəkildə dərsləri davam etdirməyi özümüzə borc bilirik.

İnanırıq ki, qısa müddət ərzində bəşəriyyət üçün bəlaya çevrilən pandemiyaya qalib gələcəyik. Xalqımıza, ölkə vətəndaşlarına göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildiririk. Biz Sizinlə güclüyük!", - deyə H.Sanıyeva yazır.

20 nömrəli məktəb-liseyin XI sinif şagirdi, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş "Ən yaxşı təqdimat" ümumrespublika müsabiqəsinin qalibi Elnur Qaracayev da Prezident İlham Əliyevə minnətdarlıq məktubu ünvanlayıb. O yazır: "Möhtərəm Prezident! Artıq bir neçə aydır ki, dünya, o cümlədən Azərbaycan koronavirus pandemiyası ilə mübarizə aparır. Azərbaycanda pandemiya ilə mübarizədə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, bu çətin dövrdə bir çox vacib amillərin (təhsil, sosial və s.) Sizin tərəfinizdən daim diqqətdə saxlanılması xalqımızda böyük inam və əminlik hissi yaradır.

Cənab Prezident! Biz şagirdlər Sizin koronavirusla mübarizə ilə bağlı tələb və tövsiyələrinizə əməl edib evdə qalsaq da, təşkil olunmuş teledərslər və müəllimlərimizin keçdiyi onlayn dərslər sayəsində təhsilimizi davam etdiririk. 2020-ci ilin abituriyentləri olacaq biz XI-ləri qarşıda ali məktəblərə qəbul imtahanları gözlədiyi üçün bu dərslərə daha məsuliyyətlə yanaşırıq. Belə bir şəraitin yaradılması şəxsən Sizin Azərbaycanın gələcəyinə və təhsilinə göstərdiyiniz yüksək münasibətin, diqqət və qayğınızın nəticəsidir. Bunun üçün biz şagirdlər Sizə minnətdarıq, əziz Prezidentimiz!

Cənab Prezident! Biz anlayırıq ki, indi ən vacib məsələ, Sizin qeyd etdiyiniz kimi, ölkəmizin bu pandemiyadan maksimum az itkilərlə xilas olmasıdır. Bunun üçün hər birimiz üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməli, məsuliyyətimizi dərindən dərk etməli, Sizin rəhbərliyinizlə bütöv xalq olaraq sıx birlik və həmrəylik nümayiş etdirməliyik. Biz inanırıq ki, Azərbaycan bu sınaqdan da üzüağ çıxacaq!"

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanda dini konfessiya rəhbərləri dövlət başçısına minnətdarlıq ediblər

**Azərbaycan Prezidentinə ünvanlanan məktubda yazılır:**

"Bir Olan Yaradanın adı ilə.

Möhtərəm cənab Prezident!

Biz, Azərbaycanda yaşayan dini konfessiya rəhbərləri ölkəmizin din xadimlərinin və dindarların iradəsini, həmçinin çox sayda müraciətlərini nəzərə alaraq, Sizə - Azərbaycan xalqının ümummilli rəhbərinə və Birinci vitse-prezident Mehriban xanıma bu çətin dönəmdə həyata keçirdiyiniz böyük işlərə, nümayiş etdirdiyiniz xüsusi diqqətə, səmimi müraciətlərinizə, xalqa ünvanlı maddi-mənəvi dəstəyə görə dərin minnətdarlığımızı ifadə edirik. Bu, bizim dini rəhbərlər olaraq mənəvi borcumuzdur və biz bunu təmsil etdiyimiz dini icmalar adından böyük məmnuniyyətlə bəyan edirik.

Zati-aliləri! Dünyanın mürəkkəb dövr yaşadığı, həyatın bütün sahələrində gərgin imtahanlardan keçdiyimiz bir zamanda biz yenə də Sizin şəxsiyyətinizin və dövlət xadimi olaraq əzəmətinizin şahidi olduq. Koronavirus bəlasının qarşısının alınmasında misilsiz əməyinizlə, Zati-aliləriniz, Azərbaycan xalqının yenilməz lideri, ümummilli dövlət xadimi kimi nəzərimizdə bir daha ucaldınız. Ulu Yaradanın lütfü ilə Siz insanlara ümid bəxş edən, həyatları xilas edən qəhrəman Vətən övladı timsalında xalqın qəlbində yer almısınız.

Möhtərəm cənab Prezident! Bütün səmavi dinlərdə bir insanı xilas etmək bütün bəşəriyyəti xilas etmək qədər yüksək dəyərləndirilir. Uca Yaradanımıza xoş gedən bu missiyanın reallaşması baxımından Sizin hər bir vətəndaşımızın həyatının qorunması uğrunda gecəli-gündüzlü mübarizə aparmağınız, öz nümunənizlə hamımızın birlikdə güclü olduğumuzu nümayiş etdirməyiniz tarixə həkk olundu. Dünyanın aparıcı dövlətlərinin belə qibtə edəcəyi çeviklik, operativliklə ərsəyə gələn yeni xəstəxanalar, ölkəyə gətirilən tibbi qurğular və zamanında verdiyiniz dəyərli qərar və sərəncamlar sayəsində cəmiyyətimiz səfərbər edildi və Azərbaycanda xəstəlik üzərində qalibiyyətin bünövrəsi qoyuldu. Azərbaycanda koronavirusa yoluxma hallarının aşağı səviyyəsi, sağalanların daha çox sayda olması görülən böyük işlərin, davamlı və gərgin zəhmətlərin nəticəsidir. Həmçinin cənabınızın COVID-19 pandemiyası ilə mübarizəyə beynəlxalq müstəvidə dəstəyi, müvafiq qurumlara, dünya birliyi ölkələrinə humanitar yardımı ölkəmizin ümumbəşəri bəla ilə mübarizədə real iştirakının bariz nümunəsi, bəşəri yardımlaşmaya gözəl örnəkdir. Zati-alilərinizin Azərbaycan həkimlərinin fədakar əməyinə verdiyi yüksək dəyərə biz də qoşulur, hökumətimizin, bütün aidiyyəti dövlət qurumlarının zəhmətlərini təqdirəlayiq qiymətləndiririk. Əminik ki, Sizin rəhbərliyinizlə görülən misilsiz tədbirlər, bu mürəkkəb dövrdə iqtisadi islahatların davam etdirilməsi yönündə səyləriniz, sosial rifaha dair addımlarınız və ən əsası, xalq-dövlət birliyi sayəsində Azərbaycan bu sınaqdan tezliklə uğurla çıxacaqdır.

Möhtərəm cənab Prezident! Biz, Azərbaycanın dini konfessiya rəhbərləri, təmsil olunduğumuz dünya dini liderlərinin nüfuzlu platforması olan Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin çoxsaylı üzvlərinin də iradəsini ifadə edərək, cənabınızın uzun illər ərzində ümumbəşəri əhəmiyyətli səmərəli fəaliyyətini, ələlxüsus, pandemiya dövründə bəşərin qorunması yönündə milli və qlobal müstəvidə atdığınız addımları təqdirəlayiq hesab edir, Sizi dünya miqyaslı lider və Azərbaycan millətinin qəhrəman oğlu kimi dəyərləndiririk.

Möhtərəm cənab Prezident! Biz bir daha Sizin ümumbəşəri bəla ilə fövqəladə mübarizənizə öz dəstəyimizi ifadə edirik. Dünya yəhudiləri üçün önəmli bayram olan Pesax, dünya xristianlarının müqəddəs Pasxa bayramı münasibətilə Cənabınızın və hörmətli Mehriban xanımın səmimi təbriklərinə görə dərin minnətdarlığımızı bildiririk. Uca Rəbbimizdən istəyimiz budur ki, Sizin siyasi uzaqgörənliklə, görkəmli dövlət xadimi olaraq həyata keçirdiyiniz fövqəladə işlər, xalqa bəxş etdiyiniz böyük ümid və dayaq Vətənimiz Azərbaycanın hər sahədə zəfərini təmin etsin, ölkəmizin tezliklə virus təhlükəsindən qurtulmasına rəvac versin. Dünya müsəlmanlarının mübarək Ramazan ayı ərəfəsində böyük ehtiram hissi ilə Sizə və ailənizə cansağlığı, xoşbəxtlik, şərəfli fəaliyyətinizdə uğurlar arzulayır, Uca Allahdan hər zaman yardımçınız olmasını diləyirik. O Bir Olan Yaradanımız Azərbaycan xalqını və bütün bəşəriyyəti hifz etsin. Amin.

*Dərin hörmət və ehtiramla,*
***Şeyxülislam Allahşükür Paşazadə***
*Qafqaz Müsəlmanları İdarəsinin sədri,*
***Aleksandr***
*Bakı və Azərbaycan Arxiyepiskopu,*
***Melih Yevdayev***
*Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri,*
***Vladimir Fekete***
*Roma Katolik Kilsəsinin Azərbaycandakı Yepiskopu,*
***Robert Mobili***
*Alban-udi icmasının rəhbəri.*
*Azərbaycan Respublikası, Bakı şəhəri".*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

İcazə verin, ailəmiz üçün ən çətin anlarda - atam, Azadlıq Partiyasının sədri Əhməd Orucun səhhətindəki problemlər ucbatından düşdüyümüz çıxılmaz vəziyyətdə bizə etdiyiniz yardıma, göstərdiyiniz dəstək və qayğıya görə Sizə sonsuz minnətdarlığımızı bildirək.

Sizə olan təşəkkür və rəğbətimiz sonsuzdur. Ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə aparılan bu gərgin şəraitdə bizə göstərdiyiniz xüsusi diqqət, müxtəlif siyasi baxışlara məhəl qoymadan atdığınız nəcib addım Sizin ən yüksək insani keyfiyyətlərə malik əsl lider olduğunuzu bir daha təcəssüm etdirir. Sizin və çox hörmətli Mehriban xanımın hər bir vətəndaşı düşünməsinin, ehtiyacı olan hər bir kəsin yardımına tələsməsinin bariz nümunəsini şəxsən gördük.

Atamın həyatı ciddi təhlükə altında olduğu məqamda etdiyiniz əvəzsiz köməyi heç vaxt unutmayacağıq.

Tanrı Sizi qorusun, cənab Prezident.

*Dərin hörmətlə,*

***Azadlıq Partiyasının sədri***
***Əhməd Orucun ailəsi adından***
***Abdul Əhməd oğlu Oruclu***

# Milli Məclisin Elm və təhsil komitəsinin növbəti onlayn iclası keçirilib

**Aprelin 22-də Milli Məclisin Elm və təhsil komitəsinin növbəti onlayn iclası keçirilib.**

Parlamentin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda "Hərbi qulluqçuların statusu haqqında", "İnzibati icraat haqqında", "Təhsil haqqında" və "Elm haqqında" qanunlarda, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"də və İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi barədə sənəd (ikinci oxunuş) müzakirə edilib.

Komitə sədri Bəxtiyar Əliyev adı çəkilən qanunlara təklif olunan dəyişikliklər haqqında məlumat verib. Bildirib ki, ölkəmizdə elmi və elmi-pedaqoji kadrların attestasiyasının aparılmasını təkmilləşdirmək, elmi tədqiqatların səviyyəsini yüksəltmək məqsədi ilə Prezident İlham Əliyevin 2019-cu il 11 iyun tarixli fərmanı ilə "Elmi dərəcələrin verilmə qaydası" və "Elmi adların verilmə qaydası" haqqında əsasnamələr təsdiq edilib. Fərmanda elmi dərəcələr və adların verilmə qaydaları, xarici ölkələrdə verilmiş elmi dərəcə və adların nostrifikasiyası, elmi dərəcədən və elmi addan məhrumetmə, elmi dərəcə və adların bərpası və digər məsələlər öz əksini tapıb. Mövcud layihə yuxarıda qeyd olunan fərmanla əlaqədar hazırlanıb və müvafiq qanunvericiliyə uyğunlaşdırmaq məqsədi daşıyır.

Komitə üzvləri Musa Qasımlı, Ülviyyə Ağayeva, Tamam Cəfərova, Etibar Əliyev, Kamilə Əliyeva, İsa Həbibbəyli, Afət Həsənova, Rəfael Hüseynov, Anar İsgəndərov, Pərvin Kazımzadə, Eldar Quliyev, Müşfiq Məmmədli, Ceyhun Məmmədov, Aqiyə Naxçıvanlı, Şahin Seyidzadə və Fatma Yıldırım iclasda çıxış edərək sənədlə bağlı fikirlərini bildiriblər.

İclasın sonunda qanun layihəsinin Milli Məclisin plenar iclasına tövsiyə edilməsi qərara alınıb.

# Parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin onlayn iclası olub

Aprelin 22-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin onlayn iclası keçirilib.

Bu barədə AZƏRTAC-a parlamentin Mətbuat xidmətindən məlumat verilib.

Komitənin sədri Səməd Seyidov bildirib ki, gündəliyə "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə İordaniya Dəniz Komissiyası arasında Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair (DHDNÇ) 1978-ci il tarixli Beynəlxalq Konvensiyanın (əlavələrlə) I/10-cu qaydasına uyğun olaraq sertifikatların (diplomların) tanınması haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə və "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında vergi inzibatçılığının həyata keçirilməsi üçün elektron formada məlumat mübadiləsi haqqında" Protokolun təsdiq edilməsi barədə qanun layihələri daxildir.

Qeyd olunub ki, Anlaşma Memorandumunun məqsədi iki ölkə arasında dəniz nəqliyyatı sahəsində təhsil və təlimin, dənizçilərə verilən ixtisas şəhadətnamələrinin qarşılıqlı tanınmasıdır. İkinci məsələ isə MDB iştirakçısı olan dövlətlər arasında vergi inzibatçılığının həyata keçirilməsinin təkmilləşdirilməsi məsələlərini əhatə edir.

Onlayn iclasda çıxış edən komitə üzvləri Cavanşir Feyziyev, Azər Kərimli, Rasim Musabəyov, Asim Mollazadə, Sabir Rüstəmxanlı, Elman Nəsirov, Ramin Məmmədov, Ramil Həsən və Sahib Alıyev müzakirə olunan məsələlərə münasibətlərini bildiriblər.

Sonra gündəlikdəki hər iki məsələ Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

# Ermənistan xarici işlər nazirinin destruktiv açıqlaması danışıqlar prosesinə ciddi zərbədir

Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan xarici işlər nazirinin Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun açıqlamasına cavabı ilə bağlı AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.



**- Ermənistan xarici işlər naziri Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovun açıqlamasına cavab verərək Azərbaycan ərazilərinin işğaldan azad edilməyəcəyini bildirdi, indiyə qədər aparılmış danışıqlar prosesi və münaqişənin mərhələli həlli ilə bağlı təklifləri rədd və inkar etdi. Bu barədə nə deyərdiniz?**

- Ermənistanın xarici işlər naziri sözügedən açıqlaması ilə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin üstündən xətt çəkir. Ermənistan tərəfinin bu kimi destruktiv açıqlaması danışıqlar prosesinə ciddi zərbədir və danışıqları pozur. Bu, eyni zamanda, ATƏT-in Minsk qrupunun həmsədrlərinə qarşı hörmətsizlikdir.

Ermənistan-Azərbaycan münaqişəsinin Helsinki Yekun Aktının prinsipləri və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında mərhələli şəkildə həll edilməsi və bu mərhələli proses çərçivəsində ilkin addım kimi Azərbaycanın Dağlıq Qarabağ regionu ətrafındakı ərazilərdən Ermənistan qoşunlarının çıxarılması həmsədr ölkələrin dövlət başçıları səviyyəsində verdikləri bəyanatlarında təsbit olunmuşdur. Həmçinin həmsədrlərin 2019-cu il 9 mart tarixli bəyanatında da münaqişənin mərhələli həllinə dair mövqe bir daha qeyd olunmuşdur.

BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrində Azərbaycana qarşı gücdən istifadə edilməsi pislənilir, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bir daha təsdiq olunur və Ermənistan qoşunlarının dərhal, tam və qeyd-şərtsiz işğal olunmuş ərazilərdən çıxarılması tələb edilir.

Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov aprelin 21-də A.M.Qorçakov adına İctimai Diplomatiyaya Dəstək Fondunun üzvlərinin "dəyirmi masa"sında çıxışı zamanı BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qətnamələrinə toxunmuş və Ermənistan-Azərbaycan münaqişəsinin mərhələli həllinə dair plan və təkliflər barədə danışmışdı.

Ermənistan bu kimi dağıdıcı açıqlamalarla danışıqlar prosesindən çıxmaq məqsədini güdürsə, onda öz mövqeyini açıq bildirməlidir. ATƏT-in Minsk qrupunun həmsədrləri də Ermənistanın bu kimi dağıdıcı mövqeyini qiymətləndirməli və öz mövqelərini ortaya qoymalıdırlar.

Prezident İlham Əliyev tərəfindən bəyan olunduğu kimi, münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi qəti, birmənalı və aydın xarakter daşıyır. Bu mövqe Prezident İlham Əliyev tərəfindən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında və Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistanın baş naziri ilə təşkil edilmiş açıq debatda bir daha qəti şəkildə ifadə olunmuşdur.

2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qanunsuz seçkilərlə əlaqədar beynəlxalq ictimaiyyətin mövqeyi Ermənistanın mövqeyinə böyük zərbə oldu. Bu qanunsuz xunta rejimini heç kim tanımır. Çoxsaylı beynəlxalq təşkilatlar və dövlətlər, o cümlədən Qoşulmama Hərəkatına üzv dövlətlər, ATƏT-in Minsk qrupunun həmsədrləri, Avropa İttifaqı, NATO, Avropa Parlamenti, Türk Şurası, İslam Əməkdaşlıq Təşkilatı və s. bu seçkiləri tanımayan bəyanatlarla çıxış etdilər. Münaqişə Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

# Azərbaycan ilə Türkmənistan arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub

Aprelin 22-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarovun Türkmənistan Xarici İşlər naziri Rəşid Meredov ilə telefon söhbəti olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, söhbət zamanı iki ölkə arasındakı ənənəvi dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi ilə bağlı bir sıra aktual məsələlər müzakirə edilib.

İlk növbədə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında Türkmənistan dövlət başçısının martın 11-də Bakıya rəsmi səfəri zamanı razılaşdırılan ikitərəfli sazişlərin həyata keçirilməsinin vacibliyi qeyd olunub.

Eyni zamanda tərəflər nəqliyyat-kommunikasiya sahəsində ikitərəfli əməkdaşlığın xüsusi əhəmiyyətini vurğulayıblar. Xəzər dənizinin Ələt-Türkmənbaşı limanları arasında birbaşa dəniz əlaqəsinin Avrasiya materikində iqtisadi-ticarət əlaqələrinin inkişafının mühüm elementi olduğu bildirilib. Nəqliyyat sahəsində qarşılıqlı əlaqələrin yüksək effektivliyini qeyd edən diplomatlar Şərq-Qərb istiqaməti boyunca nəqliyyat dəhlizlərinin səmərəli fəaliyyətinin təmin olunmasına yönəlik yeni tərəfdaşlıq formalarının axtarışı və tətbiq olunmasına diqqət ayırıblar.

Bu xüsusda nazirlər Azərbaycan və Türkmənistan xarici siyasət qurumları arasında sıx mütəmadi əlaqələrin saxlanılmasını razılaşdırıblar.

# Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistan XİN başçılarının görüşü ilə bağlı bəyanat yayıblar

ATƏT-in Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistanın Xarici İşlər nazirlərinin və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə videokonfrans formatında görüşü ilə bağlı birgə bəyanat yayıb.

Bu barədə AZƏRTAC-a ATƏT-dən məlumat verilib.

Bəyanatda qeyd edilir ki, Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov, Ermənistanın Xarici İşlər naziri Zöhrab Mnatsakanyan, ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya Federasiyası), Stefan Viskonti (Fransa) və Endryu Şofer (ABŞ) 21 aprel tarixli birgə videokonfrans da daxil olmaqla, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə martın ortalarından sıx məsləhətləşmələr keçirir.

Məsləhətləşmələrin gedişatında iştirakçılar qlobal böhranın regionun səhiyyə sisteminə və son hadisələrə təsirini müzakirə ediblər. Onlar, həmçinin Cenevrədə bu ilin 30 yanvarında yayılmış birgə bəyanata uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesində növbəti addımları nəzərdən keçiriblər.

Etiraf edilib ki, COVID-19 pandemiyası nəticəsində yaranmış fövqəladə vəziyyətə görə daha əvvəl uyğunlaşdırılmış humanitar tədbirlərin həyata keçirilməsi təxirə salınıb. Həmçinin nazirlərin şəxsi görüşləri və həmsədrlərin Cenevrədə razılaşdırılmış regiona səfərləri təxirə salınıb. Bununla belə, bu tədbirlərin hazırlığı üzrə lazımlı iş davam edir.

Həmsədrlər indiki şərtlərdə atəşin dayandırılmasına ciddi riayət etməyin və fitnəkar hərəkətlərdən çəkinməyin əhəmiyyətini vurğulayıblar və tərəfləri gərginliyin sonrakı dövrdə azaldılması üçün tədbir görməyə çağırıblar.

# Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri arasında videokonfrans formatında görüş keçirilib

Aprelin 21-də Azərbaycan Respublikası və Ermənistan Respublikası Xarici İşlər nazirlərinin ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə videokonfrans formatında görüşü keçirilib.

Azərbaycan Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, tərəflər arasında müzakirələr bir saat yarımdan çox davam edib.

Görüş zamanı tərəflər qlobal COVID-19 pandemiyasının bölgəyə təsiri və bölgədəki ən son hadisələri müzakirə ediblər.

Tərəflərin cari ilin 30 yanvar tarixində Cenevrədə qəbul etdikləri birgə bəyanata uyğun olaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi üzrə növbəti addımlar nəzərdən keçirilib. Koronavirus infeksiyasının yayılması ilə bağlı öncədən planlaşdırılmış humanitar tədbirlərin həyata keçirilməsinin, eləcə də nazirlərin görüşünün və həmsədrlərin bölgəyə səfərlərinin təxirə salındığı qeyd olunub. Bununla belə, bu tədbirləri hazırlamaq üçün müvafiq işin davam etdirildiyi vurğulanıb. Mövcud ümumdünya sağlamlıq böhranı vəziyyətində atəşkəs rejiminə riayət olunmasının və hər hansı təxribatlardan çəkinmənin vacibliyi qeyd olunub.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi dəyişilməz olaraq qalır. Bu mövqe münaqişənin BMT Nizamnaməsi və ATƏT-in Helsinki Yekun Aktında əks olunduğu kimi, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin həyata keçirilməsinə əsaslanır.

Tərəflər təmasları saxlamağı və danışıqları mümkün qısa zamanda davam etdirməyi razılaşdırıblar.

Azərbaycan substantiv danışıqların intensivləşdirilməsini tələb edir, çünki bölgənin hazırda üzləşdiyi vəziyyətdən çıxmağın başqa bir yolu mövcud deyil. ATƏT-in Minsk qrupunun həmsədrləri sülh prosesinin hərbi nəticələr olmadan irəli aparılması imkanlarını nəzərdən keçirirlər.

# Azərbaycan XİN Ermənistan xarici işlər nazirinin destruktiv açıqlamasına münasibət bildirib

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun aprelin 21-də keçirdiyi videokonfrans zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlara dair səsləndirdiyi bəyanata Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın münasibətini şərh edib.



AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva bununla bağlı aşağıdakı fikirləri bildirib: "Məlum olduğu kimi, müasir dünya nizamı II Dünya müharibəsindən sonra formalaşdı və onun əsasları 1945-ci il BMT Nizamnaməsi, 1975-ci il ATƏT-in Helsinki Yekun Aktı və 1990-cı il Paris Xartiyası sənədlərində öz əksini tapdı. Bütün bu fundamental sənədlərdə beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin suverenliyi, ərazi bütövlüyü, eləcə də xalqların öz müqəddəratı prinsiplərinə aydınlıq gətirilir. Azərbaycan kimi Ermənistan da bu sənədlərin tamhüquqlu iştirakçısıdır və onlara birmənalı şəkildə riayət edilmək öhdəliyini öz üzərinə götürüb. Bir daha xatırladırıq ki, iştirakçı ölkələr digər ölkələrin ərazilərinin toxunulmazlığına və ya siyasi müstəqilliyinə qarşı güc istifadə etməkdən çəkinməlidirlər. Həmçinin növbəti dəfə vurğulayırıq ki, yuxarıda qeyd etdiyimiz Helsinki Yekun Aktında qeyd olunduğu, daha sonradan isə Paris Xartiyasında bir daha təsdiq edildiyi kimi, öz müqəddəratını müəyyən etmə prinsipinə gəldikdə, iştirakçı ölkələr BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, eləcə də dövlətlərin ərazi bütövlüyü də daxil olmaqla, beynəlxalq hüququn müvafiq normalarına uyğun olaraq hərəkət etməlidirlər.

Ermənistanla Azərbaycan arasındakı münaqişə halında, məhz Ermənistan yuxarıda qeyd etdiyimiz öhdəliklərini pozaraq, qonşu Azərbaycana qarşı hərbi gücdən istifadə etməklə onun beynəlxalq tanınmış torpaqlarının beşdəbirini işğal edib və bu ərazilərdə yaşayan bir milyondan artıq azərbaycanlını etnik təmizləməyə məruz qoyub. Belə bir vəziyyətdə işğalçı ölkə olan Ermənistanın xarici işlər naziri utanmadan təhlükəsizlik problemlərindən, müqəddəratı azad şəkildə ifadə etməkdən danışır. Hərbi işğal şəraitində hansı təhlükəsizlikdən danışmaq olar? Bir ölkə tərəfindən digər ölkənin ərazilərinin işğalı faktının özü elə davamlı təhlükə mənbəyidir. Qarabağın əhalisinin üçdəbirinin öz daimi yaşayış yerlərindən didərgin salındığı və 30 ilə yaxındır ki, evlərinə qayıtmaq imkanından və öz bölgələrinin gələcəyinə dair azad iradə nümayiş etdirilməsindən məhrum olduqları bir vaxtda nə Qarabağ əhalisinin təhlükəsizliyi, nə də azad iradənin nümayiş etdirilməsindən danışmaq olmaz.

Aprelin 21-də Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə mərhələli yanaşma ilə bağlı səsləndirdiyi məlum şərhinə gəldikdə, bu yanaşmanın ATƏT-in Minsk qrupunun bütün həmsədrləri tərəfindən nümayiş etdirildiyini təsdiq edə bilərəm və bu mövqe onların özləri tərəfindən münaqişənin tənzimlənməsi prosesinin bütün mərhələlərində və bütün səviyyələrində dəfələrlə və ardıcıl olaraq səsləndirilib.

Yadda saxlamaq lazımdır ki, işğal müvəqqətidir. Ermənistan bunu nə qədər tez dərk edərsə və öz-özünü, xalqını aldatmağa, həmçinin beynəlxalq ictimaiyyəti yanıltmaq səylərinə son verərsə, qan tökülməsinin və onsuz da heç də yaxşı olmayan vəziyyətin daha da pisləşməsinin qarşısının alınması üçün bir o qədər çox şansı olar".

# Biz birlikdə güclüyük!

## İlham Əliyevin mükəmməl xilas modeli

Əvvəli 1-ci səh.

Fikrimizcə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi bu quruma həvalə olunmuş məsuliyyətli vəzifələri yüksək peşəkarlıq səviyyəsində yerinə yetirmək baxımından Azərbaycan Respublikası Prezidentinin etimadını doğrultmuşdur. Azərbaycan polisi həm üzərinə düşən əhalinin və nəqliyyatın nəzarət-buraxılış işlərini bacarıqla təşkil etməklə və həm də işin məsuliyyət dərəcəsinin xalqa çatdırılması üçün nümunəvi maarifçilik təlimi aparmaqla proseslərin tənzimlənməsinə qüvvə və bacarığını əsirgəməmişdir. Ölkəmizin iqtisadiyyat, sosial müdafiə, rabitə, nəqliyyat nazirlikləri və idarələri öz səlahiyyətlərini Prezidentin tapşırıqlarına uyğun olaraq, işlərini respublika üzrə hər yerdə yeni şəraitlə əlaqəli şəkildə qurmaqla həm koronavirusla mübarizəyə öz köməklərini göstərir, həm də ən çətin şəraitdə ölkədə həyat ritmlərinin davam etdirilməsinə töhfələrini verirlər. Təhsil Nazirliyi ilk dəfə olaraq bütün ölkəni əhatə edən distant təhsil şəbəkəsi yaratmağa nail olaraq fasiləsiz təhsili təmin etmişdir. Beləliklə də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük uzaqgörənliklə söylədiyi "Biz birlikdə güclüyük!" çağırışı real həyatda, ən çətin proseslərdə taleyüklü məsələlərin həllində özünün real gücünü və əhəmiyyətini isbat etmişdir.

Bütün bunlarla bərabər, XXI əsrin xərçəngi olan koronavirus biomüharibəsində ən böyük imtahanı ölkəmizin səhiyyə sistemi verməkdə davam edir. Azərbaycan Respublikasının Prezidentinin son onillik ərzində səhiyyə sahəsində həyata keçirdiyi ardıcıl islahatlar, paytaxtda və regionlarda istifadəyə verilmiş müasir tipli xəstəxana kompleksləri, xəstəxanaların ən müasir tibbi avadanlıq və cihazlarla təmin olunması, həkimlərin bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi sahəsində atılmış addımlar respublikamızda rəqabətədavamlı səhiyyə səviyyəsinin formalaşdırılması ilə nəticələnmişdir.

Normal müharibələr zamanı, əksər hallarda arxa cəbhədə yerləşdirilən hospitallardan, səhra xəstəxanalarından fərqli olaraq, koronavirus biomüharibəsində ön cəbhədə təmsil olunan mülki xəstəxanalarımız pandemiyanın qarşısının alınması üçün "hərbi" vəziyyətdə də işləməyin mümkünlüyünü isbat etmişlər. İkincisi isə, Hippokrat andına sədaqətlə xidmət edən Azərbaycan həkimlərinin vətənpərvərliyi və fədakarlığı sözün əsl mənasında xalqımızın koronavirus müharibəsinin sınaqlarından uğurla çıxmasında mühüm rol oynamışdır. Azərbaycan həkimləri pandemiya dövrünün insanlar üçün həyati əhəmiyyət daşıyan vəzifələrini şərəflə həyata keçirərək dövlətimizin də, xalqımızın da etimadını qazana bilmişdir. Bu mənada yeni dövrün həkimlərinin, tibb bacılarının bədii obrazının yaradılması postpandemiya dövrünün ədəbiyyatının baş mövzusu olmalıdır.

Dünyada və ölkəmizdə pandemiya dövrünün birinci mərhələsinin yekunlarını təhlil edərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Türk dövlətləri başçılarının onlayn fövqəladə Zirvə toplantısının keçirilməsini də əlamətdar tarixi hadisə kimi ayrıca qeyd etməyi vacib hesab edirəm. Türk dövlətləri başçılarının onlayn fövqəladə Zirvə toplantısı pandemiya dövründə bir-birilərindən təcrid olunmuş dünya ölkələri arasında əlaqə yaratmaq nöqteyi-nəzərindən Azərbaycan Respublikasının beynəlxalq birliyə doğru ilk qətiyyətli addımı kimi mühüm əhəmiyyətə malik olan tarixi hadisədir. Koronavirusla mübarizənin başlandığı vaxtdan indiyədək dünyanın müxtəlif qütblərində yerləşən ayrı-ayrı beynəlxalq təşkilatlardan heç birinin bu qədər çoxlu dövləti əhatə edən genişterkibli onlayn iclas keçirmədiyini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ideya rəhbərliyi və təşkilatçılığı ilə keçirilmiş Türk dövlətləri başçılarının onlayn fövqəladə Zirvə toplantısını pandemiya dövrünün alternativi olmayan nadir hadisəsi kimi qiymətləndirmək lazım gəlir. Bu, pandemiyanın ölkələr arasında yaratdığı blokadanı yarmaq, bir-birilərini məlumatlandırmaq, təcrübə mübadiləsi aparmaq, çıxış yolları tapmaq və əməkdaşlıq etmək istiqamətində Azərbaycan Respublikasının həyata keçirdiyi mühüm beynəlxalq əhəmiyyətə malik olan həmrəylik aktıdır.



Bu, Azərbaycan Respublikası Prezidentinin türk dünyasına və beynəlxalq birliyə birbaşa töhfəsidir. Nəhayət, bu, dünya miqyası almış pandemiya dövrünün problemlərini tezliklə və birlikdə həll etməyə Azərbaycan dövlətinin dəstəyinin ifadəsidir. Ən nəhayət, bu, ölkəmizdə və dünyada dialoq carçısı kimi tanınan Azərbaycan Respublikası Prezidentinin illərdən bəri apardığı dialoq siyasətinin növbəti təzahürü və konkret əməli nəticəsidir. Şübhəsiz, pandemiya dövrü bitəcək və illər keçsə də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin keçirdiyi Türk dövlətləri başçılarının onlayn fövqəladə Zirvə toplantısı Azərbaycanın tarixinin şərəfli hadisəsi olaraq ölkə salnaməsinin pozulmaz səhifəsi kimi yaşayacaqdır.

Hesab edirəm ki, Azərbaycanda pandemiya dövrünün çağırışlarının işığında qısa müddətdə tibbi maska fabrikinin yaradılması və istehsala başlaması, məhsullarını xalqa çatdırması da koronavirusla mübarizə dövrünün yaddaqalan hadisəsidir. Dünyanın birdən-birə maska qıtlığı çəkdiyi şəraitdə maska istehsalının təşkili respublikamızda çevik iqtisadi mühitin formalaşdırıldığının əyani göstəricisidir. Ən əsası isə bu, koronavirusla mübarizədə Azərbaycan dövlətinin öz vətəndaşlarının sağlamlığına göstərdiyi həssas münasibətin və real qayğının əməli ifadəsidir. Hesab edirəm ki, tibb sahəsində, hərbi işdə, mülki müdafiə sistemində, akademik laboratoriya mühitində daim ehtiyac hiss olunan maska istehsalı pandemiya dövründən sonra da davam etdiriləcək, yerli tələbatın ödənilməsinə xidmət göstərəcəkdir. Beləliklə, pandemiya mərhələsində Azərbaycanda yeni bir istehsal müəssisəsinin də əsası qoyulmuşdur.

Son günlərin hadisələri və qərarları aydın surətdə göstərir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizi postpandemiya dövrünə hazırlamaq istiqamətində də vaxtında və məqsədyönlü iş aparmaqdadır. Bu cəhətdən birinci mərhələdə ölkədə iş yerlərinin saxlanılması və işçilərin ixtisar edilməsinə dair sərt tədbirlərin həyata keçirilməsi həmin sahədə görülmüş düşünülmüş məqsədyönlü tədbirlərdən biri kimi qiymətləndirilə bilər. İkincisi, Azərbaycan dövlətinin aprel-may ayları müddətində 600 min nəfərdən çox aztəminatlı insanlara, iş yerlərini itirməli olmuş çalışanlara verdiyi maddi maliyyə dəstəyi və müəssisələrdə tətbiq olunan vergi güzəştləri bugünün real ehtiyaclarını ödəməklə bərabər, həm də sabahın istehsal proseslərinin icraçılarını, peşəkar mütəxəssislər təbəqəsini qoruyub saxlamaq deməkdir. Heç şübhəsiz, postpandemiya dövrünün reallıqları və çağırışları qarşıdakı illərin yeni tipli iqtisadi münasibətlərini də diktə edəcəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin karantin rejiminin mərhələli şəkildə yumşaldılması haqqındakı qərarı əhalinin qarşıdakı yeni iqtisadi və mənəvi mühitə adaptasiya olunması baxımından əhəmiyyətli olduğu qədər ən müasir çağırışlara istiqamətləndirilməsi cəhətdən də faydalıdır.

Bu cəhətdən yanaşsaq, pandemiya dövrünün bir sıra çağırışları, sifarişləri indidən görünməkdədir. Alimlər bu fikirdədirlər ki, qarşıdakı yeni dövrdə dünyada ölkələrin daxili tələbatının ödənilməsinə xidmət edəcək iqtisadi sahələrin inkişaf etdirilməsi üstünlük qazanacaqdır. Bu cəhətdən hər bir dövlət üçün ərzaq və enerji təhlükəsizliyinin təmin edilməsinin ön mövqeyə çıxacağı tam gözləniləndir. Əhalinin çoxişlənən mallara gündəlik tələbatlarının daxili istehsal əsasında ödənilməsinə də yəqin ki, daha çox fikir veriləcəkdir. Eyni zamanda informasiya texnologiyaları sahəsində xidmətlərin daha da təkmilləşdirilməsi dövrün əsas çağırışlarından sayıla bilər. Zəruri səhiyyə avadanlıqlarının istehsal edilməsi sahəsində də yerli istehsalın genişləndirilməsi gözlənilməz olmaz. Əlbəttə, bütün bunlar siyasi və elmi qurumlar tərəfindən təhlil edilib əsaslandırıldıqdan sonra yekun qərara çevriləcəkdir.

Təbii olaraq elm sahəsində də artıq yeni bir mərhələ başlanmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi elmi kollektivləri postpandemiya dövrünün çağırışlarına doğru hazırlamaq, yönləndirmək sahəsində iş aparır, alimlərin diqqətini dünya elmində gedən proseslərə, yeni hədəflərə doğru istiqamətləndirir. Hazırda ilk növbədə görsənən bundan ibarətdir ki, koronavirusla mübarizənin əsas silahı olacaq vaksinlərin kəşf edilməsi zərurəti hazırkı şəraitdə biologiya və tibb elmlərini ön mövqeyə çıxarmışdır. Heç şübhə ola bilməz ki, Nobel Komitəsinin növbəti laureatları sırasında koronavirusu müalicə edəcək vaksini icad edəcək elm adamı və ya tibb mütəxəssisi ilk növbədə yer alacaqdır. Bundan başqa, immun sisteminin qüvvətləndirilməsinin bioloji və sosial-psixoloji əsaslarının öyrənilməsi də təbabətdə əlaqədar elm sahələri ilə humanitar elmlərin inteqrasiyası əsasında kompleks tədqiqatların aparılması zərurətini meydana çıxarmışdır.

Fikrimcə, iqtisad elmi də əsaslı şəkildə yenidən qurulmağa və öz hədəflərini postpandemiya dövrünün çağırışlarına doğru istiqamətləndirməyə borcludur. Artıq Azərbaycan Milli Elmlər Akademiyasının prezidentinin təşviqi ilə Fəlsəfə İnstitutunun "Pandemiya dövrünün çağırışları və elmin müasir vəzifələri" mövzusunda onlayn elmi seminar təşkil etməyə hazırlaşması, İqtisadiyyat İnstitutunun öz əməkdaşları arasında postpandemiya dövrünün iqtisadi münasibətlərinə dair proqnozlaşdırma üzrə sorğu keçirməsi yeni dövrün əks-sədasına elmi mühitin ilkin reaksiyalarının verildiyini göstərməkdədir. Eyni zamanda bu məsuliyyətli günlərdə akademiya əməkdaşlarının sosial şəbəkələrdə elmi mülahizələrlə çıxışları, bir çox elmi-tədqiqat institutlarının, Mərkəzi Elmi Kitabxananın onlayn rejimdə fəaliyyətlərini qurmaları, magistratura təhsilinin distant təhsilin tətbiq olunması da yaranmış şəraitdə mümkün ola biləcək imkanlardan istifadə olunmasının təzahürüdür.

Nəticə olaraq bildirmək istəyirəm ki, ölkəmizin bütün ziyalıları kimi, elm adamlarımız da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin koronavirusla mübarizə sahəsindəki ardıcıl, yorulmaz və məqsədyönlü fəaliyyətini, ölkə vətəndaşlarının mənafelərinə həsr edilmiş ümummilli siyasətini ürəkdən dəstəkləyir və müdafiə edirlər. Hesab edirik ki, çətin və məsuliyyətli pandemiya dövründə Respublikamızda xalqın demək olar ki, bütün təbəqələri arasında yaranmış birlik və həmrəylik Prezident İlham Əliyevin ardıcıl dövlət siyasətinin əsasında da qazandığı uğurların möhtəşəm yekunudur.

Koronavirusla mübarizənin davam etdirilməsi və başa çatdırılması üçün karantin vaxtının uzadılması da ölkəmizdə bu ağrılı prosesdən minimum itkilərlə çıxmaq üçün vaxtında qəbul edilmiş növbəti düzgün qərardır. Həmçinin artırılmış karantin dövrü həm də postpandemiya mərhələsinə hazırlıq üçün də əlavə imkanlar yaratmağa xidmət edəcəkdir. İnanırıq ki, möhtərəm Prezidentimizin rəhbərliyi altında koronavirusla mübarizə dövründə olduğu kimi, postpandemiya mərhələsində də taleyüklü, məsuliyyətli vəzifələr uğurla həyata keçiriləcək, xalqımız daha xoşbəxt sabahlara qovuşacaqdır.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın birinci vitse-prezidenti,***
***Milli Məclisin deputatı, akademik***

## Azərbaycanda həyata keçirilən uğurlu siyasət effektiv nəticə verir

**Bu gün bütün dünya koronavirus pandemiyası ilə bağlı yaranmış vəziyyətdən əziyyət çəkir. Virusun miqyası dərin qlobal böhrana, bəşəriyyət və dünya iqtisadiyyatı üçün çox ciddi təhdidə çevrilib.**

İnfeksiya Azərbaycanda da özünü göstərsə də, respublikamızda zamanında atılan qabaqlayıcı tədbirlər nəticəsində təhlükənin ciddi fəsadlara yol açmasının qarşısı alındı.

Milli Məclisin deputatları bu barədə fikirlərini qəzetimizlə bölüşdülər:

### Həyata keçirilən tədbirlər effektiv nəticəsini verməkdədir

*Bəxtiyar ƏLİYEV,*
*Milli Məclisin Elm və təhsil komitəsinin sədri, AMEA-nın müxbir üzvü:*

- Bu gün dünya bəlkə də ən dəhşətli sosial-iqtisadi böhran dövrünə qədəm qoyub. Çünki Çindən başlayaraq dünyanın əksər ölkələrini bürüyən koronavirus pandemiyası ciddi fəsadlar törətməkdə davam edir. Bir tərəfdən 150 mindən artıq insanın ölümü, səhiyyə sistemlərinin çətin duruma düşməsi, digər tərəfdən pandemiya səbəbindən elan edilən karantin rejimlərinin iqtisadiyyata vurduğu zərər qarşıdakı illərdə dövlətləri heç də xoş olmayan durumla üz-üzə qoya bilər.

Lakin elə ölkələr var ki, bu çətin durumdan az itkilərlə çıxmaq üçün vaxtında qabaqlayıcı tədbirlər həyata keçirərək nümunə göstərirlər. Bu ölkələrdən biri də Azərbaycan Respublikasıdır. Təəssüf ki, dünyanı bürüyən koronavirus epidemiyası Azərbaycandan da yan ötmədi. Lakin respublikamız xəstəliyə qarşı mübarizədə əsl nümunə ortaya qoydu. Tibbi baxımdan ən inkişaf etmiş ölkələrin belə bu xəstəliklə mübarizədə aciz qaldığı bir vaxtda Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində Azərbaycanda pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində mühüm addımlar atıldı. Dövlətimiz bütün imkanlarını virusun yayılmasının qarşısının alınmasına və fəsadlarının aradan qaldırılmasına səfərbər etdi.

Prezident İlham Əliyev uzaqgörən siyasəti ilə pandemiyanın ölkəmizdə geniş yayılmaması və vətəndaşların sağlamlığının qorunması ilə yanaşı, onun iqtisadi duruma ciddi təsir göstərməməsi üçün də tədbirlər planlarının həyata keçirilməsindən ötrü müvafiq fərman və sərəncamlar imzaladı. Beləliklə, dünyanı bürümüş koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması məqsədi ilə İlham Əliyevin rəhbərliyi və şəxsi nəzarəti ilə həyata keçirilən ən səmərəli tədbirlər sosial-iqtisadi həyatın bütün sahələrini, vətəndaşlarımızın, xüsusilə aztəminatlı ailələrin sosial müdafiəsini əhatə etməklə bütövlükdə iqtisadiyyatımızın dayanıqlılığının təmin edilməsinə, pandemiyanın təsirlərinin ən minimum səviyyəyə endirilməsinə yönəldildi. Dövlət başçısının təşəbbüsü ilə qəbul edilmiş dövlət



dəstəyi proqramları karantin müddətində həm xalqın sosial rifah halının yaxşılaşdırılmasına, həm də sahibkarlıq subyektlərinə dəyən ziyanın dövlət tərəfindən ödənilməsinə xidmət etdi. İşçi qrupları tərəfindən hazırlanan 10 proqram əhalinin sosial müdafiəsinin gücləndirilməsinə və sahibkarların dövlət dəstəyindən yararlanmasına yol açdı.

Məhz görülən qabaqlayıcı tədbirlərin nəticəsidir ki, pandemiyanın ölkə ərazisində geniş yayılmasının qarşısı alındı. Böyük Avropa dövlətlərindəki dəhşətli ölüm və yoluxma faktları ilə ölkəmizdəki mövcud durumu müqayisə etsək, o zaman aydın şəkildə görərik ki, Azərbaycan infeksiyaya qarşı çox ciddi mübarizə aparmaqdadır. Son günlər sağalmanın yoluxma faktlarından daha çox olması isə onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin infeksiyanın ölkəmizdə geniş yayılmaması üçün həyata keçirdiyi tədbirlər effektiv nəticəsini verməkdədir. Əgər vaxtında tədbir görülməsəydi, bəlkə də Azərbaycanın səhiyyə sistemi də digər dövlətlərdəki kimi çökmüşdü.

Koronavirusla mübarizə bir daha təsdiq edir ki, cənab Prezident hər zaman olduğu kimi bu ağır dönəmdə də xalqın yanındadır və onun hər bir probleminə həssaslıqla yanaşır. İlham Əliyevin vaxtilə söylədiyi "Mən hər bir Azərbaycan vətəndaşının prezidentiyəm" sözləri bu narahat günlərdə bir daha öz təsdiqini tapdı. Uşaqdan tutmuş böyüyə qədər hamı bir daha əmin oldu ki, onların güclü dövləti və nüfuzlu, xalqın dar günündə onun arxasında inamla dayanan Prezidenti var.

Reallıq göstərir ki, Azərbaycan bu gün dünyada pandemiyaya qarşı mübarizədə ən ciddi tədbirlər görmüş ölkələrin sırasındadır və dövlət başçısının həyata keçirdiyi tədbirlər demək olar ki, əksər dövlətlər üçün nümunədir. Əminəm ki, cənab Prezidentin həyata keçirdiyi bu uğurlu siyasətin nəticəsində və xalqımızın həmrəylik nümayiş etdirməsi sayəsində koronavirusun qarşısı tam alınacaq və ölkəmiz bu sınaqdan çıxaraq yeni-yeni uğurlara imza atacaq.

### Azərbaycan bu sınaqdan da alnıaçıq çıxacaq

*Müşfiq MƏMMƏDLİ,*
*Milli Məclisin deputatı:*

- Koronavirus infeksiyası ilə əlaqədar yaranmış vəziyyət Azərbaycanda tibbi xidmətin yüksək səviyyəsini, respublikamızın istənilən ekstremal hala qarşı hazırlıqlı olduğunu bir daha təsdiqlədi. Öncə onu qeyd edim ki, ilk



gündən Prezident İlham Əliyevin diqqət mərkəzində olan bu problemin dəf edilməsi ilə bağlı Azərbaycanda görülən işlər beynəlxalq səviyyədə də dəyərləndirilir.

Məlum olduğu kimi, bu yaxınlarda Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru T.Gebreyesus Azərbaycanın və digər ölkələrin liderlərinə ünvanladığı məktubda pandemiyanın təsirinin və miqyasının məhdudlaşdırılması istiqamətində Prezident İlham Əliyevin yürütdüyü siyasəti və ölkəmizdə atılan addımları təqdir edib. Həmin məktubda yer alan təkliflərə nəzər yetirdikdə də görünür ki, onların hamısı Azərbaycanda koronavirusla mübarizədə tətbiq olunur.

Qeyd etmək istərdim ki, məhz ölkə başçısının probleme çevik reaksiyasının nəticəsi olaraq ilk vaxtlardan respublikamızda koronavirus infeksiyasının laborator diaqnostikası üçün xüsusi tibb müəssisələri müəyyənləşdirilib. Eyni zamanda ölkə üzrə 10-dan çox xəstəxana koronavirusa yoluxmuş xəstələrin müalicəsi üçün ayrılıb. Həmçinin Bakıdakı "Bulvar Hotel", "Qafqaz", "Pullman" kimi hotellər, Lənkəran, Lerik və Nabranda bir sıra hotellər karantində saxlanılan insanların sərəncamına verilib.

Göründüyü kimi, koronavirusun qarşısının alınmasının sırf tibbi baxımdan əhatə dairəsi kifayət qədər əhatəlidir. Ona görə də respublikamızda ilk gündən böyük tibbi heyət koronavirusla mübarizəyə səfərbər olunub. Onlar həm laboratoriyalarda, həm xəstəxanalarda, həm də karantin üçün ayrılmış xüsusi yerlərdə koronavirusla mübarizə aparırlar.

Təbii ki, vəziyyətin ciddiliyi xüsusən həkimlərdən böyük cəsarət, hünər və eləcə də əsl vətəndaşlıq məsuliyyəti tələb edir. Reallıq ondan ibarətdir ki, həkimlərimiz ilk gündən öz peşələrinə sədaqət və vətənpərvərlik nümayiş etdirərək respublikamızda koronavirusun yayılmaması və xəstələrin sağlam həyata qayıtmaları üçün cəsarətlə mübarizə aparırlar. Məhz həkimlərimizin əzmkarlığının və yorulmazlığının nəticəsidir ki, bu qlobal infeksiyanın yayılmasının daha təhlükəli hal almasının qarşısı alınıb.

Prezident İlham Əliyev çıxışlarında həkimlərin fədakarlığını yüksək qiymətləndirib. Eləcə də koronavirusla mübarizədə iştirak edən həkimlərin aylıq məvacibləri artırılıb. Bakıda "Yeni klinika" tibb müəssisəsinin açılışında Prezident həkimlərə təşəkkür edərək deyib: "Onlar xalqımıza xas olan ən yüksək xüsusiyyətləri nümayiş etdirirlər və öz həyatlarını risk altına ataraq xəstələrə xidmət göstərirlər. Ona görə hər bir Azərbaycan vətəndaşı həkimlərə dəstək olmalıdır. O cümlədən koronavirusa yoluxmuş xəstələr başa düşməlidirlər ki, həkimlər belə ağır şəraitdə, sadəcə olaraq, yeriməyə çətinlik yaradan geyimlərdə, maskalarda onlara xidmət göstərirlər. Ona görə həkimlər ən yüksək qiymətə layiqdirlər".

Birinci vitse-prezident Mehriban Əliyeva da "Instagram" səhifəsində paylaşım edərək ən vacib və mürəkkəb vəzifəni bu gün tibb işçilərimizin, həkimlərimizin, alim və laborantlarımızın yerinə yetirdiklərini bildirib. "Epidemiya ilə mübarizədə ön cəbhədə olan məhz onlardır. Onların hər an qəbul etdikləri qərarlar, peşəkar bilik və bacarıqları, fədakarlıq və şəfqəti bizim əsas silahımız və ümidimizdir. Bu günlərdə biz həkim peşəsinin niyə müqəddəs missiya adlandırıldığını yenidən dərk edirik. Bu peşə həqiqətən də həmişə dərin zəka və yüksək bacarıq tələb edib. Amma bu gün bizim tibb işçilərimizdən həm də böyük şəxsi cəsarət tələb olunur. Onlar bu çətin sınaqdan şərəflə çıxırlar", - deyə Mehriban Əliyeva bildirib.

Bu günə qədər koronavirusa yoluxmuş xəstələrin böyük bir qisminin müalicə alaraq sağalması və ölüm sayının az olması da həkimlərimizin fədakarlıqlarının nəticəsidir. Onlar heç nədən çəkinməyərək günlərlə öz ailələrindən, övladlarından uzaq düşsələr də, öz peşə borclarını vicdanla, əsl vətəndaşlıq təəssübkeşliyi ilə yerinə yetirirlər.

Dövlətimiz və xalqımız müstəqilliyimiz bərpa olunduqdan sonra çox sınaqlardan çıxıb. Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasətin, vətəndaşlarımızın öz rəhbəri ətrafında sıx birləşməsinin və bu karantin günlərində nümayiş etdirilən milli həmrəyliyin nəticəsində xalqımız bu sınaqdan da layiqincə çıxacaq.

Azərbaycan cəmiyyəti bu günlərdə başqa bir hadisənin də şahidi oldu. Belə ki, Prezident İlham Əliyev dövlətimizin və xalqımızın sağlamlığı, təhlükəsizliyi naminə əlindən gələni etdiyi halda, özünü müxalifət adlandıran bəzi destruktiv qruplar bir daha antimilli mövqe ortaya qoydular. Bəli, bu qurumlar, o cümlədən antiazərbaycançı dairələrin "beşinci kolonu" funksiyasını yerinə yetirən ünsürlər bir daha antimilli mövqe ortaya qoydular. Onlar bu ağır günlərdə xalqın yanında olmadıqlarını və həm də Azərbaycan dövlətinə qənim kəsildiklərini növbəti dəfə nümayiş etdirdilər. Və cənab İlham Əliyev cari ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə onların dövlətə düşmən kəsildiklərini bəyan etməklə, həmin destruktiv qüvvələrin fəaliyyətinə ən düzgün qiyməti verdi.

Azərbaycan xalqı aqildir, müdrikdir. Bu xalq dövlətimizə və dövlətçiliyimizə yönəlmiş qəsbləri və səhvləri heç vaxt bağışlamır. Ona görə də sapı özümüzdən olan bu antimilli qruplara da Azərbaycan cəmiyyətində yer olmayacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Azərbaycan yenə nümunə göstərir

Əvvəli 1-ci səh.

Hələliksə, bütün elmi və ictimai müstəvilərdə, ali və məişət səviyyələrində COVID-19-la bağlı ən müxtəlif versiyalar irəli sürülür, ağlabatan və ağlagəlməz yozumlar söylənir. Bəzən yumor, bəzən də satira janrında təqdim edilən "xalq yaradıcılığı"ndan başlayıb tanınmış və tanınmamış mütəxəssislərin rəyləri ilə tamamlanan sosial şəbəkə materialları isə həmin versiya və yozumların əhali tərəfindən nə qədər ciddiliyə alındığını göstərir. Özü də söhbət yalnız bizim yerli mütəxəssis və həkimlərin rəylərindən, sadə camaatın ehtimallarından getmir. Müasir informasiya-kommunikasiya texnologiyaları koronavirusla bağlı bütün dünyada baş verənlərdən, söylənilən fikir və münasibətlərdən anındaca xəbər tutmağa imkan verir. İmkan verir bilək ki, COVID-19 bir virus kimi təhlükədən savayı, həm də çoxsaylı suallar daşıyıcısıdır.

Məsələn, ilk dəfə ÇXR-in Uhan şəhərində baş qaldırmış koronavirusun nədən sonrakı ünvanı, məsələn, Pekin, Şanxay yox, Qərbi Avropa ölkələri və hətta Amerika oldu? Nədən bu qorxulu virus inkişaf etmiş, xüsusən səhiyyəsi yüksək səviyyədə, əhalisi qanunpərəst olan ölkələrdə kasıb, adi sanitariya və gigiyena normalarının, kommunal infrastrukturun nə olduğu bilinməyən və ya illərdir ərazilərində silahlı qarşıdurmalar, vətəndaş müharibələri getdiyindən daşı daş üstə qalmayan, məsələn, Hindistan, Pakistan, İndoneziya, Əfqanıstan, Suriya, Liviyadan daha sürətlə yayıldı? Yaxud, eyni regionda yerləşən və eyni sosial-iqtisadi imkanlara malik, lakin pandemiyaya fərqli reaksiya verən və münasibət göstərən İsveç və Danimarkanı götürək. Hansı səbəbdən koronavirusdan ciddi karantin qadağaları ilə qorunan Danimarkada vəziyyət epidemiyanı yalnız xəbərdarlıq və tövsiyələrlə zərərsizləşdirmək yolunu tutan İsveçdən daha ağırdır?

Bir neçə günün faktıdır. Rusiyanın 1-ci telekanalının "Vremya pokajet" tokşousunda Moskva klinikalarının birinin baş həkimi etiraf etdi ki, COVID-19-u adi sətəlcəmdən seçmək çətin olduğu üçün oxşar simptomlarla qəbul etdikləri xəstələrin hamısına koronavirus diaqnozu qoyurlar. Bu nədir? Naşılıq, yoxsa sığortalanmaq? Və bir də görəsən, belə hallar digər ölkələrin klinikalarında da baş verirmi?

COVID-19-un ətrafında bu cür cavabsız suallar, izahsız müəmmalar çoxdur və artıq bu barədə müxtəlif ölkələrdən müxtəlif səviyyələrdə səslər eşidilməyə başlayıb. Bununla belə, müəyyən istisnaları nəzərə almasaq, heç kim koronanın təhlükəli virus olduğunu və ona qarşı görülən tədbirlərin vacibliyini də inkar etmir. Əksinə, bu sahədə fərqlənən ölkələrin həyata keçirdikləri tədbirlər təqdir olunur, öyrənilir və virusun çox yayıldığı regionlarda tətbiqi tövsiyə edilir.

Azərbaycan da məhz təcrübəsinin öyrənilib tətbiq edilməsinin tövsiyə olunduğu ölkələrdəndir. Baxmayaraq ki, dövlətimiz nisbətən gəncdir və o üzdən pandemiya kimi problemlə ilk dəfədir qarşılaşıb, Prezident İlham Əliyevin prinsipiallığı, qətiyyəti və lider keyfiyyətləri sayəsində Azərbaycan bu gün koronavirusa yoluxanların və ondan dünyasını dəyişənlərin sayının azlığına görə nəinki regionda, hətta dünyada seçilən ölkələrdən sayılır. Martın 24-dən tətbiq olunan və mərhələlərlə sərtləşdirilən xüsusi karantin rejimi nəticəsində, şükürlər olsun ki, biz pandemiyanın məlum ölkələrdəki kimi acı nəticələrini yaşamırıq.

Təbii ki, söhbət Prezidentin timsalında dövlətimizin ən çox diqqət verdiyi əhalinin sağlamlığından gedir. " ...bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bugünkü ağır vəziyyət bir daha onu göstərir ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur, nəyi bəyan ediriksə, onu da edirik. "Bu sitat Prezidentin aprelin 17-də Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında keçirdiyi iclasdakı çıxışındandır. Göründüyü kimi, dövlət başçısı bu mürəkkəb günlərdə də bəzi həmkarlarından fərqli olaraq, ölkənin iqtisadi problemlərinin həllindən öncə əhalinin qayğısına qalır və bu qayğı təkcə insanların sağlamlığını yox, həmçinin sosial problemlərini əhatə edir. "... bu pandemiya dövründə bizim üçün əsas prioritetlər insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır", - deyən Prezident elə həmin videoiclasda hər iki nazirliyin qarşısına konkret vəzifələr qoymuşdur - ölkə üzrə yaşayış minimumu səviyyəsində (190 manat) iki ay birdəfəlik ödəmə verilən qeyri-formal işləyənlərin sayını 200 mindən 600 minə çatdırmaq; ictimai iş yerlərinin sayını 90 minə qaldırmaq; işsizlikdən sığorta ödənişlərinin əhatə dairəsini genişləndirmək, əmək müqaviləsinin müddəti bitmiş şəxslərə də işsizlikdən sığorta ödənişi vermək; ilin sonunacan daha 12 min ailəni özünüməşğulluq proqramına cəlb etmək; xüsusi karantin rejimi dövründə ünvanlı dövlət sosial yardımının təyin olunma müddəti bitən ailələrə bu yardımın verilməsini karantin rejimi başa çatdığı tarixdən növbəti ayın əvvəlinəcən uzatmaq.

Amma bunlaracan da ölkəmizdə Prezidentin birbaşa tapşırıqları, tövsiyələri və sərəncamları ilə pandemiyanın törətdiyi çətinliklərlə bağlı çoxsaylı tədbirlər həyata keçirilmişdir. Tədbirlər həm dövlət, həm də özəl sektorlarda çalışanları əhatə edir. Hər iki sektorda 1,6 milyondan çox insanın iş yerlərinin qorunmasına elektron sistem üzərindən gündəlik nəzarət olunur. Bunlardan əlavə, 300 min muzdlu işçinin əməkhaqqının bir hissəsi dövlət tərəfindən maliyyələşdirilir və bir o qədər fərdi sahibkara dəstək verilir.

Pandemiya dövründə sosial sahələr üzrə ölkəmizdə görülən və görüləcək tədbirlərin siyahısını uzatmaq da olar. Lakin əminik ki, elə sadaladıqlarımız da bu çətin günlərdə, sualların cavabları üstələdiyi bir vaxtda, COVID-19-un sabahının proqnozlaşdırılması mümkün olmadığı indiki zamanda Azərbaycan dövlətinin vətəndaşa münasibət sarıdan nümunəvi siyasətinə heç kimdə şübhə qalmamasına kifayət edər.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

Biz birlikdə güclüyük!

# Sumqayıtlılar karantin rejiminin tələblərinə riayət edirlər





**Bəşəriyyəti ciddi narahat edən yeni növ koronavirusun ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində görülən işlər, təxirəsalınmaz tədbirlərin əsas məqsədi vətəndaşların sağlamlığının qorunması ilə bağlıdır.**





Dünyanı bürüyən bu virusa qarşı aparılan mübarizədə sumqayıtlılar da yaxından iştirak edirlər. Cənubi Qafqazın ikinci böyük sənaye şəhərində insanlar bu virusa qarşı birlikdə mübarizə aparırlar.

Şəhərdə bütün sahələrdə - küçələrdə, məhəllələrdə, ticarət şəbəkələrində, digər sənaye müəssisələrində dezinfeksiya işləri aparılır. Park və xiyabanlarda oturacaqlar, insanların ən çox istifadə etdiyi məkanlar olan bankların, marketlərin girişləri, dayanacaqlar, ictimai nəqliyyat vasitələri tibbi ləvazimatlarla təmizlənir.

Sumqayıtda Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qəbul edilən xüsusi karantin rejimi qaydalarının və eyni zamanda "evdə qal!" çağırışının təmin olunması məqsədilə aztəminatlı ailələrə yardımlar paylanılır.

Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən həyata keçirilən aksiya çərçivəsində ümumilikdə 5 mindən artıq ailəyə ərzaq bağlamaları çatdırılıb. Aksiya çərçivəsində Sumqayıt şəhərində müəyyən olunmuş siyahı əsasında aztəminatlı ailələrə və 65 yaşdan yuxarı tənha və ehtiyacı olan şəxslərə 50 kiloqramlıq ərzaq məhsullarından ibarət yardım sovqatları öz evlərində təqdim olunub.

Ərzaq yardımı alan vətəndaşlar xüsusi karantin rejimi günlərində onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər. Yaşı 65-i adlamış Əntiqə Abdinova bu cür qayğını göz yaşları ilə paylaşdı. Ahıl çağlarını yaşayan xanım bildirdi ki, koronavirusla mübarizə başlayandan verilən bütün tapşırıqlara riayət edirik. Əhalimizə göstərilən qayğı dövlətimizin siyasətinin tərkib hissəsidir. Nəvələrimizlə söhbət edəndə qürurla danışırıq. Çünki hər kəsin arxalandığı və hamının dəstəklədiyi dövlətimiz var.

Ofelya İbrahimova tənha qadındır. Sumqayıtın yaşıdı olan bu xanım da öz minnətdarlığını belə bildirdi:

- Bu şəhərdə doğulub böyümüşəm. Çətinlikdə, xoş gündə, bayramda xalqımız həmişə bir olub. Bu gün bizə edilən yardım alqışlanmalıdır. Dövlətimizin başçısı və Birinci vitse-prezidentimiz insana verdikləri dəyərin yüksək olduğunu əməldə sübuta yetirirlər. Qürur duyur, fəxr edirik ki, Sizin kimi dövlət başçımız var.

Şəhərdə koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri çərçivəsində köməyə və dəstəyə ehtiyacı olan ölkə vətəndaşlarına yardım çağırışına ilk qoşulanlardan olan könüllülər nəcib təşəbbüslərinə davam edirlər. Hazırda yüzlərlə könüllü bu təşəbbüsün iştirakçısıdır. Gənclər ahıl insanların ehtiyaclarının ödənilməsində fəallıq göstərir, onların əvəzinə bazarlıq edir, ev işlərində yardımçı olurlar.

Sumqayıtda koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar mübarizə tədbirlərinin xəritəsi genişdir. Ölkədə xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqlar üçün qan ehtiyatının azaldığını nəzərə alaraq Heydər Əliyev Fondu cəmiyyətə çağırış etmişdir. Bu çağırışa cavab olaraq Sumqayıt şəhərində də qanvermə aksiyasına başlanılıb.

Artıq bir neçə gündür ki, şəhərdə qanvermə aksiyası keçirilir. Şəhər sakinlərindən könüllü olaraq bu xeyirxah aksiyada iştirak etmək istəyənlər Sumqayıt Şəhər Təcili Tibbi Yardım Xəstəxanasında yerləşən qan bankına müraciət edirlər.

Çətin gündə dərdin böyüklüyü dost köməyi ilə azalar. Ötən ilin sonlarında Çinin Mienyen və Sian şəhərlərindən Sumqayıt Şəhər İcra Hakimiyyətinə koronavirusla mübarizə məqsədilə müvafiq köməyin göstərilməsi ilə bağlı müraciət daxil olmuşdu. Sumqayıtdan bu şəhərlərə tibbi ləvazimatlar göndərilmişdi. Pandemiyaya qalib gələn çinlilər də humanitar yardım edərək xüsusi qoruyucu vasitələri, tibbi ləvazimatları Sumqayıta göndərmişlər. Mienyen şəhərindən göndərilən tibbi ləvazimatlar Azərbaycan Hava Yollarının karqo terminalına çatdıqdan sonra dezinfeksiya edilərək Sumqayıt şəhərinə gətirilib. Hazırda Sumqayıt şəhər 1 nömrəli şəhər xəstəxanasında humanitar yardım aidiyyəti üzrə tibb müəssisələrinə paylanılır.

Həmçinin bu günlərdə Prezident İlham Əliyevin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışı oldu. Belə bir müəssisənin Sumqayıtda yerləşən Kimya Sənaye Parkında yaradılmasının özünün məkan baxımından əhəmiyyəti böyükdür.

Ölkə başçısının diqqət və qayğısı nəticəsində insan sağlamlığının mühafizəsi daim önə çəkilir. Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirləri ilə videobağlantı formatında iclasda bildirib: "Məni indiki vəziyyətlə bağlı ən çox narahat edən insanların sağlamlığıdır. Bizim həkimlərimiz insanlara kömək göstərmək üçün əllərindən gələni edirlər. Bildiyiniz kimi, bizim səhiyyə sistemimiz böyük sınaq qarşısındadır".

Bu gün sumqayıtlılar hamı bir nəfər kimi pandemiyaya qarşı mübarizə aparır. Bu isə gələcək inkişafımızı davam etdirən hər bir azərbaycanlının qorunması üçündür. Sumqayıtlılar zəhmətkeş insanlardır. Onlar karantin rejiminin tələblərinə riayət edirlər. Tezliklə karantin bitəcək, etibar və qayğı görən hər bir ölkə vətəndaşı kimi, sumqayıtlılar da dövlət qarşısında öz əməlləri ilə borclarını ödəyəcəklər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Naftalanlılar dövlət başçısının çağırışına qoşularaq pandemiyaya qarşı mübarizədə fəallıq göstərirlər



**Dünyanı çənginə almış koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizədə dövlətimizin, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın daim xalqımızın yanında olması indi hər bir Azərbaycan vətəndaşını qürurlandırır.**

İnsanların sağlamlığının qorunması, rifahının yüksəldilməsi üçün ölkə başçısı tərəfindən atılan addımlar, həyata keçirilən tədbirlər hamını ürəkdən sevindirir. Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, yeni tibb müəssisələrinin fəaliyyətə başlaması, tibb işçilərinin əməkhaqlarının artırılması, əhaliyə müavinətlərin verilməsi kimi tədbirlərin reallaşması bütün Azərbaycan xalqının ürəyindən xəbər verir.

Respublikamızın hər yerində olduğu kimi, unikal sağlamlıq mərkəzi olan Naftalanda da həyata keçirilən bütün tədbirlər razılıqla qarşılanır. Görülən işlər bir daha insanları əmin edir ki, dövlətimiz hər zaman öz vətəndaşının yanındadır və onun sağlamlığının qorunması həmişə diqqət mərkəzindədir. Lakin Nazirlər Kabineti yanında Operativ Qərargahın pandemiyaya qarşı mübarizə tədbirləri ilə bağlı verdiyi qərarlara hörmətlə yanaşan naftalanlılar yaxşı bilirlər ki, onların bu virusdan qorunmasında özlərindən də çox şey asılıdır. Şəhər əhalisi ölkə başçısının "Biz birlikdə güclüyük!" çağırışına qoşularaq evdə qalmaqla bu bəladan uzaq olmağı özlərinin vətəndaşlıq borcu hesab edirlər.

Qeyd edək ki, Naftalanda əhalinin bu dəhşətli bəladan qorunması üçün çoxsaylı tədbirlər həyata keçirilir. Operativ Qərargahın verdiyi bütün qərarlara əsasən şəhərdə tətbiq olunan xüsusi karantin rejiminin tələblərinə, habelə sanitar epidemioloji normalara qeyd-şərtsiz əməl olunması üçün zəruri tədbirlər görülür. Bu məqsədlə əhali arasında profilaktik təbliğat aparılır, onlara karantin rejiminin qaydalarına riayət olunmasının əhəmiyyəti çatdırılır, özlərinin və yaxınlarının müəyyən edilmiş qayda və tövsiyələrə əməl edərək sağlamlıqlarını qorumalarının vacibliyi xatırlanır. Tez-tez şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə əhaliyə tibbi maska, spirt və əlcək paylanır.

Diqqətə çatdıraq ki, koronavirus (COVID-19) infeksiyasının sürətlə yayılma təhlükəsini nəzərə alaraq, ölkəmizdə elan olunmuş xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq Naftalan şəhərində profilaktik tədbirlərlə yanaşı sosial tədbirlər də həyata keçirilir. Karantin dövründə şəhər icra hakimiyyətinin əməkdaşları tənha yaşayan ahıl vətəndaşların və bir qrup əlilin evinə baş çəkmiş, onlara ərzaq və tibbi ləvazimatlar vermiş, hətta kommunal xidmətlər göstərmişlər. Bu görüşlər zamanı vətəndaşlara infeksiyanın sürətlə yayılma riski və törədə biləcəyi fəsadlar barədə ətraflı məlumatlar verilmiş, onlardan xüsusi karantin rejiminin tələblərinə və sanitar-epidemioloji normalara ciddi əməl etmələri tövsiyə olunmuşdur. Ərzaq və tibbi ləvazimatlarla təmin olunmuş vətəndaşlar göstərilən diqqət və qayğıya görə ölkə başçısına, eləcə də şəhər icra hakimiyyətinə minnətdarlıq etmişlər.



Yaşı 65-dən yuxarı olan ahıllara və imkansız ailələrə yardım edilməsi kampaniyası bu gün də davam etdirilir. Sevindirici haldır ki, bu aksiyada bütün idarə və təşkilatlar fəallıqla iştirak edirlər. Elə bu günlərdə tənha yaşayan ahıllara dəstək məqsədilə həyata keçirilən xeyriyyə aksiyasında Dövlət Sosial Müdafiə Fondunun Naftalan şəhər şöbəsinin əməkdaşları, Yeni Azərbaycan Partiyası Naftalan şəhər təşkilatının könüllüləri və "Bravo" supermarketlər şəbəkəsi tərəfindən 70-dən çox ailəyə ərzaq yardımı paylanmışdır.

Qeyd etmək lazımdır ki, hazırda dünyada, eləcə də ölkəmizdə hökm sürən koronavirus (COVID-19) pandemiyasının təhlükələri barədə təbliğat geniş miqyasda davam etdirilir. Bu işdə məktəblilərin daha çox maarifləndirilməsinə diqqət yetirilir. Elə bu məqsədlə 13-18 aprel tarixlərində şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə şəhərin ümumtəhsil məktəblərinin şagirdləri arasında "Koronavirusla mübarizə - Naftalan şagirdlərinin gözü ilə" mövzusunda inşa yazı müsabiqəsi keçirilmişdir. Karantin rejimi müddətində evdə qalan məktəblilərin asudə vaxtlarının səmərəli təşkil edilməsi və şagirdlərin bu sahədə aparılan işlər barədə fikirlərinin öyrənilməsi məqsədilə keçirilən müsabiqədə mövzunun məzmununa və dolğunluğuna uyğun olaraq 5 yeri tutmuş şagirdlərə şəhər icra hakimiyyəti tərəfindən hədiyyə və fəxri fərmanlar verilmişdir.



Şəhərdə koronavirus pandemiyasına qarşı mübarizəyə məktəblilər də öz töhfələrini verirlər. Bu məqsədlə onlar maraqlı video-çarx hazırlamışlar. Videoçarxda bütün məktəblilər "evdə qal" çağırışına qoşulmağa dəvət edilmiş və karantin rejimində onlar evdə qaldıqları müddətdə öz həmyaşıdlarını dərs oxumağa, musiqi, idman və müxtəlif yaradıcılıq sahələri ilə məşğul olmağa çağırmışlar.

Bundan başqa, Naftalan Şəhər İcra Hakimiyyəti başçısının təşəbbüsü ilə icra hakimiyyəti aparatı işçilərinin bilik və bacarıqlarının artırılması istiqamətində təşkil olunmuş 3 aylıq ekspres ingilis dili kursunda tədris olunan məşğələlər onlayn qaydada davam etdirilmişdir.

Hazırda hökm sürən pandemiyaya qarşı mübarizə Naftalanda uğurla davam etdirilir. Xəstəliyin yayılmaması üçün demək olar ki, bütün şəhər, o cümlədən əhalinin yaşadığı bina və ərazilər dezinfeksiya edilməklə yanaşı, təbliğat işləri də aparılır. Naftalanlılar inanırlar ki, tezliklə bu bəladan xilas olacaqlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Dövlətin əsas məqsədi insanların sağlamlığının təminidir

## Koronavirus pandemiyasının qarşısının alınmasında məsuliyyət, nizam-intizam, milli birlik və həmrəylik də yüksək səviyyədə nümayiş etdirilməlidir

**Ötən ilin dekabr ayından başlayaraq COVID-19 pandemiyasına qarşı mübarizə ümumdünya hərəkatına çevrilib. Buna görə də ölkələr öz vətəndaşlarına yeni təhlükələrin öhdəsindən gəlməkdə kömək etmək məqsədilə təsirlərin azaldılması üçün uyğunlaşdırma tədbirləri planlaşdırır. Bu il ÜST gözəgörünməz bir bəlanın - koronavirus pandemiyası təhlükəsinin qarşısının alınması ilə məşğuldur.**

Tarix boyu virus, yaxud bakterial pandemiyalar olub. İndi də var, sabah, yəni gələcəkdə olmayacağına da heç kim təminat vermir. Sadəcə mikroorqanizm sayılan koronavirusla insan arasındakı vəhdət pozulduğundan, o, özünü bəşəriyyətə qarşı aqressiv aparmağa başlayıb.

Müharibəni dövlətlər aparır. Xalq da dövlətinin və liderinin ətrafında monolit birləşərək, bu müharibəni, yaxud mübarizəni (bu, müharibədir, insan itkisi müharibəyə xasdır) başa çatdırmaqda böyük səy göstərir.

Azərbaycan Prezidenti istər Sumqayıt Kimya Sənaye Parkında, istərsə də Türk Şurasının videokonfransında koronavirusla bağlı vəziyyətə aydınlıq gətirərkən bir daha vurğuladı ki, əsas məqsədimiz insanların sağlamlığını təmin etməkdir.

Hazırda respublikada əhalinin infeksiyaya yoluxmaması və sağlamlığının təmin edilməsi üçün ciddi tədbirlər görülür.

Dünyanın inkişaf etmiş ölkələrində gündə yüzlərlə insan dünyasını dəyişir. Heç bir ölkənin səhiyyə sistemi sayı artmaqda olan xəstələrin müalicəsini tam təşkil edə bilmir. Respublikamızda isə əhali koronavirus infeksiyası ilə əlaqədar testdən keçirilir. Azərbaycan dünyada aparıcı ölkələrdəndir ki, on minlərlə insan qısa müddət ərzində müayinə edilir. Həmçinin tibbi maska istehsalına başlanması da xüsusi əhəmiyyət kəsb edir. Əlbəttə, tibbi maska istehsalı həm koronavirusla mübarizəyə mühüm töhfə, həm də Azərbaycanın bu sahədə asılılığını aradan qaldıran amildir.

Bundan başqa, ölkəmizdə qısa müddət ərzində dezinfeksiya vasitələrinin istehsalı da təşkil edilib. Dövlət başçısı xüsusi vurğuladı ki, əsas məsələlərdən biri apteklərdə və digər ticarət yerlərində süni qiymət artımına yol verməməkdir: "Yaradılmış infrastruktur imkan verir ki, lazım olan istehsalat sahələri qısa müddət ərzində təşkil olunsun. Bunun üçün bütün zəruri tədbirlər görülür. Məhz bu qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində ölkəmizdə koronavirus xəstəliyinin geniş yayılmasının qarşısı alınır.

Aprelin əvvəllərindən qüvvəyə minmiş yeni karantin qaydalarının bir məqsədi var: bu xəstəlik Azərbaycanda geniş yayılmasın. Buna görə də insanlar məsuliyyətli olmalı, özlərini, yaxınlarını, ailə üzvlərini qorumalıdırlar. Bu, ilk növbədə, hər bir vətəndaşdan asılıdır. Karantin rejimi insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı üçündür".

Xalqımız ən çətin günlərində milli birlik, həmrəylik və məsuliyyət nümayiş etdirib. Bu gün də bunlar tələb olunur. Hazırda ölkəmizin müəyyən edilmiş xəstəxanalarında koronavirus xəstələri



müalicə alır. Cəmi bir ay ərzində mindən çox çarpayılıq, ən müasir standartlara uyğun tibbi müəssisələr istifadəyə verilib ki, orada da koronavirus xəstələri müalicə edilirlər.

Azərbaycan Prezidenti müraciətində onu da bildirdi ki, yaxın zamanlarda Bakıda və bir neçə bölgədə müasir modul tipli xəstəxanaların yaradılması nəzərdə tutulur. Çox yaxşı haldır ki, yeni texnologiyalar əsasında inşa ediləcək xəstəxanalar bütün lazımi avadanlıqlarla da təchiz ediləcək.

Yeri gəlmişkən, vaxt amili, həkimlərin peşəkarlığı, mövcud imkanların vəhdəti Azərbaycanın az itkilərlə bu vəziyyətdən çıxmasına imkan yaradır. Bu gün karantində olan insanların əksəriyyəti yaradılan şəraitdən çox razıdırlar, buna görə də dövlətə və həkimlərə minnətdarlıqlarını bildirirlər.

İqtisadi cəhətdən güclü olan Azərbaycan dövləti koronavirusdan zərər çəkən sahələrdə çalışan insanların problemlərini də nəzərə aldı. Koronavirusla müharibənin ön cəbhəsində təbii ki, "ağxalatlılar" - sağlamlıq keşikçiləri, daha dəqiq desək, səhiyyə işçiləri dayanıb. Əməkdaşı olduğum Azərbaycan Tibb Universiteti Tədris-Terapiya Klinikasının kollektivi də, başda Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, eləcə də klinikanın direktoru, professor Surxay Musayev olmaqla, gecə-gündüz çalışmaqdadır. Azərbaycan dövləti, onun səhiyyə strukturları (Səhiyyə Nazirliyi, TƏBİB və s.) dünyada tək-tək səslənən populist şüarlarla deyil, dövlət başçısının müraciət və tövsiyələrinə əsaslanaraq xalqın sağlamlığı ilə əlaqədar ciddi tədbirlər görməkdədir. Azərbaycan dövlətini və onun başçısını düşündürən ilk növbədə xalqın sağlamlığı qayğısına qalmaqdır. Dövlət büdcəsindən ayırmalar, həmçinin yaradılan Koronavirusla Mübarizəyə Dəstək Fonduna qısa müddət ərzində özəl sektor, eləcə də fərdi vətəndaşlar tərəfindən toplanan ianələrin səmərəli sərfi də bunu təsdiqləməkdədir. Xalqdan isə yalnız bir şey tələb olunur: bu istiqamətdə ölkə rəhbərliyinin, eləcə də ÜST-ün tövsiyələrinə heç bir əsas, hansısa bəhanə gətirmədən əməl etmək.

Bu mübarizə yalnız fərdin yox, ilk növbədə, xalqın sağlamlığı məsələsidir. Fərdin və xalqın (toplumun) sağlamlığına zərər vuranlara, qanuna tabe olmayanlara ilk dəfə hüquq mühafizə əməkdaşları tərəfindən xəbərdarlıq edilir. Qanuna təkrar məhəl qoymayanlar haqlı olaraq inzibati, hüquqi şəkildə cəzalandırılırlar.

Əlbəttə, bu pandemiya da tarixin arxivinə gedəcək. Amma onun ibrətamiz dərsləri qalacaq: bəşəriyyət, düşünən, ağıllı, təfəkkürlü insanlar üçün. Koronavirus bütpərəst çinliyə də, müsəlman iranlıya da, xristian italyana da, iudist yəhudiyə də eyni şəkildə yanaşdı. Tanrının yaratdığı varlıq kimi - dininə, dilinə fərq qoymadan, məzhəbinə baxmadan.

Bu gün bədbin olmağa, pessimizmə yer yoxdur. 30 illik həkimlik təcrübəmə əsaslanıb deyə bilərəm ki, Azərbaycan xalqı genotip cəhətdən sağlam olanlardandır. Bu, əsasən insanların milli-dini sağlamlığından, saflığından keçir.

Bir sıra patologiyaların mövcud olduğu vətəndaşlarımız xüsusi risk qrupu təşkil edir ki, onlara sadəcə ayrıca diqqət və qayğı olmalıdır. Bu qrupa xüsusilə şəkərli-diabet, bronxit-ağciyər xəstəlikləri, ürək çatışmazlığı ilə müşayiət olunan hallar, onkoloji patologiyalar və s. aiddir.

Maraqlı bir faktı da yadda saxlamaq lazımdır: virus infeksiyaları payız və yaz fəslində daha çox təsadüf edir. Hətta cərrahiyyə əməliyyatları zamanı istifadə olunan alətlər ultrabənövşəyi şüalarla dezinfeksiya edilir. Atmosferin son vaxtlar təmizliyini də bura əlavə edək. Daha dəqiqi yaz aylarının sonuna doğru Günəş də öz köməkliyini bizdən - xalqımızdan əsirgəməyəcək. Səxavətli Azərbaycan torpağı öz məhsulları ilə virusu yerində oturtmaq üçün immunitetimizə layiqli töhfəsini verəcək.

Koronavirusa münasibətdə yaş anlayışı yoxdur. Sadəcə orqanizmin immun-bioloji müqavimət məsələsi var. Təbii ki, yaşın rolu həmişə olub. Amma bu o demək deyil ki, infeksiyaya barmaqarası baxılmalıdır. Əsla yox! Qorunmaq və özgələrini də qorumaq hər birimizin məsuliyyətinə daxildir.

***Nağdəli ZAMANOV,***
***Azərbaycan Tibb***
***Universitetinin dosenti***

# Azərbaycan uzadılmış karantin rejimindən mərhələli çıxış ərəfəsindədir

## Hansı mərhələnin daha tez yumşaldılmasına başlanması və ardıcıllığı müzakirə olunur

Qlobal pandemiya elan edilən koronavirusdan qurtulmaq üçün bütün dünya səfərbər olub. Azərbaycanda da infeksiyanın yayıldığı ilk zamanlardan etibarən ona qarşı mübarizə tədbirləri həyata keçirilir. COVID-19-un ölkəmizdə yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədi ilə Prezident İlham Əliyevin tapşırığına əsasən, hələ yanvar ayından zəruri qabaqlayıcı tədbirlər görülməyə başlandı. Profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradıldı.



Virusun erkən aşkarlanması istiqamətində aparılan testlərin sayı getgedə artırıldı. Azərbaycanda indiyədək koronavirusa yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 102.764 test aparılıb.

Virusun yayılmasının qarşısının alınması istiqamətində ölkədə xüsusi karantin rejimi tətbiq olundu və hazırda bu rejim 2020-ci il 20 aprel saat 00:00-dan 2020-ci il 4 may saat 00:00-dək uzadılıb. Bununla əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 aprel tarixli 124 saylı qərarında qeyd olunan bütün tədbirlər, o cümlədən yükdaşımaları istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxışa, yerli hava uçuşlarına tətbiq olunan məhdudiyyətlər, eləcə də bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması 2020-ci il 4 may saat 00:00-dək uzadılır.

### Prezident İlham Əliyevə təşəkkür məktubları gəlməkdə davam edir

Eyni zamanda ölkədəki sanitar-epidemioloji vəziyyət təhlil edilərək uzadılmış karantin rejimi dövründə ayrı-ayrı sahələrdə tətbiq olunan məhdudiyyətlərin yumşaldılması da istisna edilmir.

Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib ki, bu həftə uzadılmış karantin rejimindən mərhələli çıxış planı hazırlanacaq. Hazırda bununla bağlı bizə iki əsas prinsip məlumdur: "Mayın 4-dən sonrakı dövrdə artıq karantindən çıxış mərhələsi başlayır. Karantindən çıxış isə mərhələli şəkildə həyata keçiriləcək. Biz artıq mayın 4-də mart ayındakı situasiyaya qayıtmayacağıq. Bu, gözlənilmir. Bu barədə artıq fikir ayrılığı yoxdur və qərar qəbul olunub. Hansı mərhələnin daha tez yumşaldılmasına başlanılması və ardıcıllığı müzakirə olunur. Bu həftədən uzadılmış karantin rejimindən mərhələli çıxış planının detalları məlum olacaq və bu qarşıdan gələn günlərdə ictimaiyyətə elan ediləcək".

Ölkəmizdə koronavirusa qarşı gördüyü effektiv tədbirlərə görə, Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür məktubları gəlməkdə davam edir. Ölkənin müxtəlif guşələrindən dövlət başçısına məktublar ünvanlayan vətəndaşlar koronavirusun qarşısının alınması, virusa yoluxmuş insanların müalicəsi, əhalinin sosial-iqtisadi problemlərinin həlli istiqamətində görülən işləri yüksək qiymətləndirirlər.

### Birdəfəlik ödəmələrin verilmə prosesi hər gün davam edir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 30 min işsiz və xüsusi karantin rejiminə görə işini itirən qeyri-formal məşğul aztəminatlı şəxsin birdəfəlik ödəmə (190 manat) ilə təmin olunması üçün müvafiq vəsaiti aidiyyəti üzrə köçürüb.

Nazirlikdən verilən məlumata görə, həmin kateqoriyalardan olan şəxslərdən artıq 290 min nəfərə birdəfəlik ödəniş edilib və bunun üçün köçürülən maliyyə vəsaitinin məbləği 55,1 milyon manatdır.

İlkin mərhələdə 200 min şəxsə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulsa da, Prezident İlham Əliyevin tapşırığına əsasən birdəfəlik ödəmə proqramının əhatə dairəsi 3 dəfə artırılıb, 600 min şəxsə aprel və may ayları üçün birdəfəlik ödəniş ediləcək.

Aprel ayı üzrə ödənişlərin bu ayın sonu - gələn ayın əvvəlləri yekunlaşdırılması təmin olunacaq.

Hazırda hər bir ödəniş edilən şəxsin telefon nömrəsinə bu barədə SMS göndərilir. O, bu mesajı aldıqdan sonra evdən çıxmaq üçün müvafiq qaydada icazə alaraq mesajda "Azərpoçt" MMC qeyd edildiyi halda istənilən poçt şöbəsinə, bank göstərildiyi halda isə həmin bankın istənilən filialına şəxsiyyət vəsiqəsi ilə müraciət edərək birdəfəlik ödəməni əldə edirlər.

Birdəfəlik ödəmələrin verilməsi prosesi hər gün davam edir.

### Pandemiyadan zərər çəkənlərin sosial yükü azaldılacaq

Azərbaycanda kənd təsərrüfatında çalışanların sosial yükü azaldılacaq. Bu, pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə (o cümlədən kiçik və orta sahibkarlığa) vergi güzəştləri və təttilləri mexanizmi sənədinə əsasən həyata keçiriləcək.

Mövcud qanunvericilikdə mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin torpaq sahəsinin az və ya çox olmasından asılı olmayaraq, sabit olaraq hər bir əmək qabiliyyətli ailə üzvünə görə minimum əməkhaqqının 6 faizi miqdarında baza sosial sığorta haqqı nəzərdə tutulur. Minimum aylıq əməkhaqqı məbləğinin 250 manat məbləğinədək artırıldığını nəzərə alsaq, 5 hektaradək torpaq sahəsi və 4 nəfər ailə üzvü olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslər aylıq 60 manat məbləğində məcburi dövlət sosial sığorta haqqı ödəməlidir.

### Karantin rejimini pozanlar məsuliyyətə cəlb olunurlar

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədi ilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 21.04.2020-ci il saat 00:00-dan 22.04.2020-ci il saat 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 1822 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polisi İdarəsindən verilən məlumata görə, ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 35 156 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb olunub.

### Koronavirus dünyada

Dünyada COVID-19 virusundan sağalanların sayı 700 mini keçib. Koronavirusdan ölənlərin sayı isə 178 281 nəfərdir.

İspaniyada son sutka ərzində yeni növ koronavirusdan 435 nəfər vəfat edib və ölkədə indiyə kimi bu virusdan ölənlərin sayı 21 717 nəfərə çatıb. Bu günə kimi ölkədə 208 389 nəfər COVID-19 virusuna yoluxub ki, onlardan 85 915 nəfər sağalıb.

Almaniyada son sutka ərzində yeni növ koronavirusa 2237 yoluxma qeydə alınıb, 281 nəfər vəfat edib. Robert Kox İnstitutunun məlumatına görə, ölkədə indiyə kimi 145 694 nəfər bu virusa yoluxub, 99 mindən çox insan sağalıb, 4879 nəfər ölüb.

Meksikada son sutka ərzində COVID-19-a 729 yeni yoluxma qeydə alınıb, 145 nəfər ölüb. Ölkədə indiyə kimi 9501 nəfər koronavirusa yoluxub.

Pakistanda isə son sutkada yeni növ koronavirusdan 17 nəfər ölüb, 533 yeni yoluxma qeydə alınıb. Ölkədə virusa yoluxanların sayı 9759 nəfərə, xəstəlikdən ölənlərin sayı isə 209 nəfərə çatıb. İndiyə kimi 2156 nəfər xəstəlikdən sağalıb. Ölkədə ən çox yoluxma Pəncab əyalətində qeydə alınıb.

İsraildə yeni növ koronavirusa 384 yoluxma qeydə alınıb, 3 nəfər vəfat edib. İsrail Səhiyyə Nazirliyi məlumat yayıb ki, ölkədə koronavirusa yoluxanların sayı 14 326 nəfərə çatıb, xəstəlikdən 187 nəfər ölüb.

Rusiyada son sutka ərzində daha 5236 nəfər yeni növ koronavirusa yoluxub və bununla da ölkə ərazisində COVID-19-a yoluxanların sayı 57 999 nəfərə çatıb. Son sutka ərzində 57 nəfər ölüb, ümumilikdə ölənlərin sayı 513 nəfərə çatıb. Xəstəlikdən sağalanların sayı 4420 nəfərdir.

Ukraynada son sutka ərzində COVID-19-a 467 yoluxma qeydə alınıb, 13 nəfər ölüb. Ukraynada indiyə kimi 6592 nəfər koronavirusa yoluxub, 174 nəfər ölüb.

Gürcüstanda yeni növ koronavirusa yoluxanların sayı 411 nəfərə çatıb. Hazırda ölkə üzrə karantində 5015 nəfər saxlanılır, stasionar müalicədə isə 573 nəfər var. Virusa yoluxmuş şəxslərdən 97-si sağalıb, 4 nəfər isə vəfat edib.

İranda son 24 saat ərzində yeni növ koronavirusdan 94 nəfər vəfat edib və bununla da ölkədə bu virusdan ölənlərin sayı 5391 nəfərə çatıb. Burada son 24 saat ərzində 1194 yeni yoluxma faktı qeydə alınıb və indiyədək COVID-19 virusuna yoluxanların sayı 85 996 nəfərə çatıb.

Ermənistanda son sutka ərzində yeni növ koronavirusa 72 yoluxma qeydə alınıb. Bununla da xəstəliyə yoluxanların sayı 1473 nəfərə çatıb. Burada koronavirusdan 24 nəfər ölüb.

### Bəzi ölkələrdə karantin rejimi yumşaldılacaq, amma...

Slovakiyadakı koronavirusla bağlı tətbiq edilmiş karantin rejimi aprelin 22-dən yumşaldılacaq. Ölkənin Baş Naziri İqor Matoviç bildirib ki, çərşənbə günündən etibarən respublikada ilk karantin güzəştləri ediləcək: "Xüsusilə sahəsi 300 kvadratmetrə qədər olan mağazalar və xidmət müəssisələri açılacaq. Eyni zamanda stadionlarda idman etməyə, müvafiq iaşə xidmətlərindən istifadəyə, yəni bufeti və yeməkxanaları olmayan yataqxanaların, açıq ərazilərdəki fermer bazarlarının, avtomobil salonlarının fəaliyyətinə icazə veriləcək".

Hollandiya hökuməti tərəfindən iyunun 1-dək qüvvədə olan kütləvi tədbirlərə qoyulan qadağa sentyabrın 1-dək uzadılıb. Bu barədə Hollandiyanın Baş Naziri Mark Ryutte bildirib ki, məhdudiyyətlər həmçinin böyük yay musiqi festivallarına, eləcə də idman yarışlarına da şamil ediləcək: "Ölkədə koronavirusun yayılması səbəbindən bu il futbol çempionatı oynanılmayacaq. Bəli, bu, kədərli xəbərdir. Bu tədbirləri qurban verməyə məcburuq".

Fransa Prezidenti Emmanuel Makron çərşənbə axşamı ölkənin dini konfessiyalarının nümayəndələri ilə telekonfrans zamanı bildirib ki, Fransadakı dini obyektlər mayın 11-dən, yəni karantin rejimi ləğv edildikdən sonra açılmayacaq: "Görünür, bu obyektlər yalnız iyunun ortalarından etibarən fəaliyyətə başlaya biləcək".

### ABŞ-ın bu ştatı Çin hökumətini məhkəməyə verib

"ABŞ-ın Missuri ştatı Çin hökumətini məhkəməyə verərək ölkəni koronavirusa yoluxdurmaqda günahlandırıb". Bu barədə ştatın baş prokuroru Erik Şmitt açıqlamasında bildirib.

Prokurorun sözlərinə görə, Çin hökuməti COVID-19 təhlükələri və yoluxucu olması barədə dünyaya yalan məlumat verib, şikayət edənləri susdurub və xəstəliyin yayılmasını dayandırmaq üçün heç bir iş görməyib: "Çin hökuməti hərəkətlərinə görə cavab verməlidir".

Məhkəmənin iddiasına görə, Çin hakimiyyəti ictimaiyyəti aldatmaqda, vacib məlumatları yayımlamamaqda, şikayətçiləri həbs etməkdə, virusun insandan insana ötürülmə faktını rədd etməkdə, tibbi araşdırmaları məhv etməkdə, milyonlarla insanın virusla təmasda olmasına imkan verməkdə ittiham edilir.

Çin hakimiyyətinin isə bu və digər iddiaları rədd etdiyi bildirilir.

### Taclı bəlaya qarşı yeni peyvənd sınaqları

Almaniyada yeni növ koronavirusa qarşı hazırlanmış peyvəndin klinik sınağına icazə verilib. Bu barədə ölkənin Peyvəndlər üzrə Federal İnstitutu məlumat yayıb.

Peyvəndin effektivliyini yoxlamaq üçün klinik sınaqlarda 18-55 yaş aralığında 200 nəfər sağlam şəxs iştirak edəcək.

Bundan başqa, Böyük Britaniyanın Səhiyyə naziri Matt Hankok deyib ki, bu gün ölkəsində Oksford Universiteti tərəfindən koronavirusa qarşı hazırlanan peyvəndin sınağına başlanılacaq.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) hazırda COVID-19-a qarşı 20 peyvəndin üzərində iş getdiyini bildirib.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Bakı Ali Neft Məktəbi MBA proqramına qəbul elan edir

**Bakı Ali Neft Məktəbi (BANM) MBA (Biznesin idarəedilməsi) proqramına qəbul elan edir.**

Ali məktəbin mətbuat xidmətindən verilən məlumata görə BANM-in MBA proqramında tələbələr idarəetmə və biznesin müxtəlif sahələri üzrə bilik və bacarıqlar əldə edirlər. Kurslar olduqca praktik və əhatəlidir. Ali məktəbdə MBA proqramını tədris edənlər iri yerli və transmilli şirkətlərdə çalışan rəhbər vəzifəli şəxslərdir ki, bu da tələbələrə yalnız nəzəri deyil, eyni zamanda real təcrübələr haqqında biliklərə yiyələnməyə imkan verir.

Tədris proqramına strateji idarəetmə, marketinq, statistika, investisiya və digər fənlər daxildir.

Kurikulum və dərs vəsaitləri dünyaca tanınmış akademik heyət tərəfindən yalnız Bakı Ali Neft Məktəbi üçün hazırlanıb. Proqrama qəbul olan tələbələr öncədən xüsusi hazırlanmış dərsliklər və digər köməkçi vəsaitlərlə təmin edilirlər.

Bakı Ali Neft Məktəbinin MBA proqramına qəbul Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul qaydaları əsasında aparılır.

Dərslər həftə içi 3 gün olmaqla, axşam saatlarında təşkil edilir. Bütün dərslər yalnız ingilis dilində tədris edilir. Proqramın müvəffəqiyyətlə mənimsənilməsi üçün ingilis dilini bilmək əsas şərtdir. Belə ki, Dövlət İmtahan Mərkəzinin imtahanlarından uğurla keçən və BANM-in MBA proqramına qəbul olan tələbələrin qeydiyyat zamanı ingilis dili bilikləri daxili imtahan və ya müsahibə yolu ilə test edilir. Əgər tələbə ilkin bakalavr və ya magistr təhsilini tam olaraq ingilis dilində bitiribsə və ya uzun müddət əsas danışıq dilinin ingilis dili olduğu şirkətdə çalışıbsa bu zaman daxili imtahan keçirilməyə bilər.

BANM-in MBA mərkəzinin əsas missiyası qlobal səviyyədə rəqabətədavamlı, yüksək səviyyəli menecerlər yetişdirməkdir. Bunun üçün dünyada qəbul edilən əsas istiqamətlər müəyyənləşdirilib. Buraya "Maliyyənin idarəolunması", "Biznes və iqtisadiyyat üçün statistika", "Marketinq konsepsiyaları", "Menecerlər üçün mühasibat", "İdarəetmə və təşkilati davranış", "İstehsalın və əməliyyatların idarəolunması", "Strateji idarəetmə: nəzəriyyə və praktika", "İdarəetmənin iqtisadiyyatı", "İnformasiya texnologiyalarının idarəolunması", "Kapital qoyuluşu və maliyyə strategiyaları", "Xərclərin strateji idarəolunması", "Strateji idarəetmə və biznes siyasəti", "Bazarın öyrənilməsi və beynəlxalq biznes" daxildir.

BANM MBA tələbələri üçün müxtəlif sahələrdə biliklərini genişləndirmək və maraq sahəsini seçmək imkanı yaradır:

- Tədqiqat metodologiyası
- İnsan resurslarının idarəolunması
- Beynəlxalq idarəetmə
- Risklərin idarəolunması və sığortalama
- Beynəlxalq maliyyə menecmenti
- Biznes münasibəti
- Beynəlxalq biznes qanunu
- Layihələrin idarəolunması
- Beynəlxalq əlaqələr

MBA-də əldə olunan bilik və bacarıqlar müxtəlif şirkətlərdə təcrübə proqramlarında uğurla iştirak etməyə və tələbələrin özlərini yeni sahələrdə sınamağa imkan verəcək. İllik təhsil haqqı 5000 AZN kimi müəyyən edilib. Əlavə məlumat üçün (+99450) 843-30-58 nömrəli telefon və rovshan.budagov@socar.az e-poçtu vasitəsilə əlaqə saxlamaq mümkündür.

# Azərbaycanın elektrik enerji sistemi getdikcə daha da güclənir

*Əvvəli 1-ci səh.*

Açılış mərasimində Prezident İlham Əliyev iştirak etmiş və tədbirdəki çıxışında demişdir: "Bu bina sovet dövründə tikilib. Bir müddət bundan əvvəl özəlləşdirməyə çıxarılmış və "Azərenerji"nin balansından çıxarılmışdı. Mən bundan xəbər tutandan sonra göstəriş verdim ki, bu, dərhal "Azərenerji"nin balansına qaytarılsın. Çünki əks təqdirdə bu binanı özəlləşdirən hansısa sahibkarların burada nə yaradacaqları bəlli deyildi. Bina çox böyükdür, ərazisi də böyükdür, təqribən 4 hektara yaxındır. Əvvəlki binanın sahəsi 13 min kvadratmetr idi, indi isə artırılıb 20 min kvadratmetrə çatdırılıb...

Bu bina energetiklərə qaytarılandan sonra, 2018-ci ilin sonunda burada əsaslı yenidənqurma - təmir işləri başlamış və uğurla başa çatdırılmışdır. Bu bir daha onu göstərir ki, Azərbaycan dövləti energetika sahəsinə çox böyük əhəmiyyət verir. Təsadüfi deyil ki, bizim infrastruktur layihələrinin icrası ilə bağlı ilk addımlarımız məhz energetika sahəsinə də aid idi. Hələ 2004-cü ildə regionların birinci sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilərkən orada infrastruktur layihələrinin arasında əsas diqqət energetika sahəsinə yönəlmişdi".

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə həyata keçirilən əsaslı islahatlar sırasında enerji sektorunun müasirləşdirilməsi və inkişafı istiqamətində görülən işlərin də özünəməxsus yeri var. Bu işlər geniş miqyası və mühüm əhəmiyyəti ilə seçilir. Ölkənin enerji sisteminin etibarlılığının təmin edilməsi üçün mükəmməl infrastrukturun yaradılması istiqamətində həyata keçirilən tədbirlər ardıcıl xarakter daşıyır. "Azərenerji"nin Baş İdarəetmə, Elm, Tədris və Laboratoriya Kompleksinin müasir səviyyədə yenidən qurulması buna aydın misaldır.

Bu mərkəz vasitəsi ilə enerjisistemin avtomatik idarə edilməsinin, idxal-ixrac proseslərinin, tənzimləmələrin həyata keçirilməsi nəzərdə tutulur. Əməliyyatlar insan müdaxiləsi olmadan məsafədən icra edilir. Yenidənqurmadan sonra "Azərenerji" ASC-nin Mərkəzi aparatı bu binaya köçürülüb. Burada əməkdaşların fəaliyyəti üçün bütün zəruri avadanlıq quraşdırılıb.

Təsadüfi deyil ki, dövlət başçısı kompleksin açılışında ölkəmizin yaxın keçmişdə enerji qıtlığından necə əziyyət çəkdiyini də xatırlatdı: "Biz xaricdən elektrik enerjisi alırdıq. Həm valyuta xaricə gedirdi, həm də bizim mövcud infrastruktur xətlərimiz imkan vermirdi ki, ölkəmizi elektrik enerjisi ilə təmin edək. Hətta Bakı şəhərində gecə saatlarında elektrik enerjisi kəsilirdi. Yadımdadır, - gənc nəslin nümayəndələri bəlkə də bunu xatırlamır, - o vaxt hətta televiziya verilişləri axşam saat 12-də dayandırılırdı ki, insanlar televiziyaya baxmasınlar, enerjidən çox istifadə etməsinlər. Yəni böyük qıtlıq var idi. O ki qaldı, Azərbaycanın bölgələrinə, orada, ümumiyyətlə, dayanıqlı enerji təminatı nədir, insanlar bilmirdilər. Ən yaxşı halda sutka ərzində 2-4 saat elektrik enerjisi verilirdi və əlbəttə ki, bu, həm insanların həyat tərzinə mənfi təsir göstərirdi, eyni zamanda bizim iqtisadi, sənaye potensialımızın artımına da böyük problem yaradırdı".

Məhz buna görə də regionların inkişafına yönələn birinci Dövlət Proqramından başlayaraq bu məsələyə xüsusi diqqət yetirildi. Regional elektrik stansiyalarının tikintisi vüsət aldı. Astarada, Xaçmazda, Şəkidə, Şahdağda, Səngəçalda və digər bölgələrdə inşa edilən elektrik stansiya və yarımstansiyaları ölkənin elektrik enerjisinə olan tələbatının müəyyən dərəcədə təmin edilməsinə imkan yaratdı. Bununla yanaşı, yeni, böyük elektrik stansiyalarının da tikintisinə başlandı.

Beləliklə, son 16 il ərzində ölkəmizdə 30-dan çox yeni stansiya inşa edilmişdir. İndi bizim Şirvan şəhərində tikilmiş, generasiya gücü təxminən 800 meqavata bərabər olan "Cənub" Elektrik Stansiyamız var. Bundan savayı, 525 meqavatlıq Sumqayıt Elektrik Stansiyası, generasiya gücü 400 meqavata yaxın olan "Şimal-2" Stansiyası istifadəyə verilib. "Səngəçal" Stansiyasının generasiya gücü isə 300 meqavatdır. Yəni təkcə bu dörd stansiyanın generasiya gücü 2 min meqavatdan çoxdur.

Son illərdə Azərbaycanın müxtəlif yerlərində su elektrik stansiyaları da inşa edilmişdir. Naxçıvan MR-də tikilmiş su elektrik stansiyalarının generasiya gücü bütün muxtar respublikanın tələbatını ödəmək iqtidarındadır. Vaxtilə İrandan və Türkiyədən elektrik enerjisi alan muxtar respublika indi başdan-başa nura boyanmışdır. İndi burada elektrik enerjisinin ixrac potensialı da yaranmışdır.

Ümumiyyətlə, bu gün bütövlükdə ölkəmizdə ixrac potensialı var və Azərbaycan elektrik enerjisi idxalçısından bu məhsulun ixracatçısına çevrilmişdir.

***Flora SADIQLI, "Azərbaycan"***

# Paşinyanla kilsənin savaşı böyüyür

*Əvvəli 1-ci səh.*

Ermənistan parlamentinin keçmiş deputatı Lilit Qalstyan ermənilərin katolikosu ətrafında baş verən hadisələri şərh edərkən deyib ki, bu hal yeni qarşıdurmaya rəvac verir: "Hətta dərindən düşünəndə dəhşətə gəlirsən. Milli institutlarımıza qarşı bu amansız və utanmaz hücum, dinsizlərin hücumu deyərdim, ilk gündən başlayıb. Bütün milli institutları hədəfə alırlar. Bunlar ən vacib milli, dövlət dirəkləri olan ailə, kilsə, milli mədəniyyət və ordudur. Kimliyimizi gücləndirən dəyərləri hədəfə alan, ləkələyən, məhv edən siyasi texnologiyaları görmək çətin deyil. Vehapar və kilsə bu sıradadır".

### "Koronavirus kilsəyə revanş üçün yaxşı bəhanə olub"

Rusiyanın "lenta.ru" saytı yazır ki, əslində, hökumətlə kilsə arasında yaşananların dinlə əlaqəsi yoxdur. Belə ki, Paşinyanın hakimiyyətə gəlməsindən sonra hökumət kilsənin zənginliyinin səbəblərini araşdırmağa başlayıb, məktəblərdən dini yığışdırıb və ateistlər üçün dövlət vəzifələrini açıq elan edib. Hətta Eçmiədzinə belə ateist qadın rəhbər gətirilib ki, bu da kilsəni qəzəbləndirib: "Koronavirus kilsəyə revanş üçün yaxşı bəhanə olub. Bütün dünyada həkimlər, virusoloqlar koronavirus tapmacası üzərində baş sındırdığı zaman Ermənistanda dindarların səyləri ilə buna "çarə" dərhal tapılıb. İnsanları virusun həddən artıq təhlükəli olmadığına, ondan kompüterdə iki düyməni sıxmaqla azad olmağın mümkün olduğuna inandıra biliblər.

Məsələn, erməni kilsələrindən birinin "Facebook" səhifəsində buxur tüstüsünün mikrobların havada, suda və orqanizmdə artmasının qarşısını aldığına və bütün virusları məhv etdiyinə dair saxta elmi dezinformasiya paylaşılıb. Bunun mənasının nə olduğu aydındır. Erməni Apostol Kilsəsinin Ararat Yeparxiyasının rəsmi saytında buxurun təkcə kilsədən alınmasına dair tapşırıq var".

Fövqəladə hal ölkədə kilsənin təbliğatını artırıb. Hətta vəziyyət o həddə çatıb ki, keşişlər koronavirusun ya psixoloji hal olduğunu, ya da tanrının cəzası olduğunu təbliğ etməyə başlayıblar. Təbliğat o qədər yüksəlib ki, hətta sosial şəbəkələrdəki az baxışa sahib olan dini səhifələr də bir neçə dəfə yüksəlib. Bununla əlaqədar olaraq ölkədə dini xurafat həddən ziyadə artıb.

Rus portalı həmçinin hökumətin də öz maraqları üçün koronavirusa ilk gündən əhəmiyyət vermədiyini bildirir. Hətta Paşinyan əsl koronavirusun dövlət orqanizmini zəhərləyənlərdən olduğunu deyərək, öz hakimiyyətini gücləndirmək üçün israrla referendum təşviqatını aparıb. Fevralın 26-da səhiyyə naziri Arsen Torosyan belə koronavirusun ciddi bir şey olmadığını söyləyib. Amma epidemiya özünü çox gözlətməyib və bir neçə gün sonra koronavirusa qeyri-ciddi yanaşan hakimiyyət mövqeyini 180 dərəcə dəyişməyə məcbur olub. Kilsə də bundan hökumətə qarşı istifadə edir.

### Rahiblərin cinayətə cəlb olunması tapşırığı verilib

Paşinyan və komandası kilsə rəhbərliyini dəyişdirmək planlarını yenidən işə salıb. Artıq Paşinyanın ailəsinə aid "Aykakan Jamanak" belə bir yazı ilə çıxış edib ki, Paşinyan Koçaryanın azadlığını tələb edənləri bağışlamayacaq. Bu xüsusda Paşinyan hüquq mühafizə orqanlarının rəhbərlərini yanına dəvət edərək, kilsənin rahiblərini cinayətə cəlb etmək üçün hər cür səy göstərmələrini tapşırıb. Bundan başqa, hakimiyyət nəzarəti altında olan media vasitələrinə ləkələyici faktlar əsasında kilsəyə qarşı hücuma keçmək tapşırığı verilib.

Artıq Milli Təhlükəsizlik Xidmətinin İstintaq departamenti kilsənin yeparxiyasından birinin rəhbərinə qarşı ittiham irəli sürüb. Söhbət Ararat Patriarxal Yeparxiyasının lideri Navasard Kçoyandan gedir.

"Politik.am" nəşri yazır ki, Ermənistan hökuməti öz qarşısına kilsə ilə aparılacaq belə bir siyasəti əsas qoyubsa, bu, olduqca ibtidai və işləməyən bir tezisdir: "Əslində, hökumətin hədəf aldığı qurumun rolundan və əhəmiyyətindən bir an ayrılsaq, hakimiyyətin təsadüfən qorxularını dilə gətirdiyinin şahidi olarıq. Koçaryanı azadlıqda görmək Paşinyan administrasiyasının demək olar ki, ən böyük qorxusudur və hakimiyyəti hərəkətlərinə nəzarətetmə ampluasından çıxara biləcək gücə malikdir. II Qaregin şəxsiyyətinə müsbət və ya mənfi münasibətindən, dini etiqadından asılı olmayaraq Paşinyanın sırf siyasi cəhətdən ən böyük qorxusu, daha doğrusu, hazırkı baş nazirin ən çox nədən qorxduğu amil ortaya çıxdı".

Beləliklə, indiki durumda kilsə də Paşinyanın hakimiyyətini tam qəbul etmir. Bu da qarşıdurmanı şiddətləndirir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

## 23 aprel Ümumdünya kitab və müəlliflik hüququ günüdür

İyirmi beş il öncə təqvimdəki əlamətdar günlərin sırasına biri də əlavə olunub. Belə ki, kitabları və müəllif hüququnu təbliğ etməklə yaradıcılığın, mədəni müxtəlifliyin və bütün fəaliyyət sahələrində biliklərə bərabərhüquqlu əlçatımlığın tərəfdarı kimi çıxış edən, kitab işinin, qiraətin təşviqinə köməklik göstərən UNESKO tərəfindən 1995-ci ildə Ümumdünya kitab və müəlliflik hüququ günü təsdiq edilib. Azərbaycanda bu əlamətdar gün 1997-ci ildən qeyd olunmağa başlayıb.



# Bəşəriyyətin ən gözəl ixtirası - kitablar

UNESKO-nun Baş direktoru Odri Azule məktubunda bu çətin dövrümüzdə kitabların insan dühasının rəngarəngliyinin təcəssümü, bəşəriyyətin zəngin təcrübəsinin saxlanc yeri olduğunu, həyatın mənasının axtarışına və özünüifadəyə doğru ümumi səylərimizi əks etdirdiyini, bu səylərin isə bütün cəmiyyətlərimizi irəliyə hərəkətə vadar etdiyini diqqətə çatdırıb. O vurğulayıb: “Kitablar ümumi gələcəyin qurulması naminə bəşəriyyətin ümumi keçmişə, tarixə və mədəni irsə malik olan vahid ailədə birləşməsinə kömək edir, bu cür ümumi gələcəkdə isə insan səylərinin möhtəşəm xorunda hər birimizin səsi aydın səslənəcəkdir”.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovla bu tarixi günlə bağlı xeyli söhbət etdik. O bildirdi ki, hər il aprelin 23-də bu günü qeyd edərkən biz kitabların - bəşəriyyətin ən gözəl ixtirasının sehrli qüvvəsini və onların yaradıcılarının - bilik xaliqlərinin müəllif hüquqlarını tanıyırıq. “Məhz kitablar və əsər müəllifləri keçmişlə gələcək arasında əlaqəni formalaşdırır, nəsillər və mədəniyyətlər arasında körpülər qurur, məkan və zaman çərçivələrindən kənarda ideya mübadiləsini təmin edir. 23 aprel tarixini qeyd edərkən biz ideya və biliklərin yayıcılarına - müəlliflərə, naşirlərə, kitab ticarətçilərinə və kitabxanalara da lazımi qiymət veririk”.

Dövlət başçısının titanik səylərini, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin təbliği, incilərinin tanınması istiqamətində yorulmaz fəaliyyətini qeyd edərək Kamran İmanov söylədi ki, UNESKO-nun qeyd etdiyi kimi, kitablar, müəlliflər və ümumilikdə kitab işi insanın əsas azadlıqlarının kəsişməsində yerləşir, bu azadlıqlardan ən mühümləri fikirlərin heç bir təsirə məruz qalmadan ifadə edilməsi və nəşriyyat fəaliyyətinin tam sərbəstliyidir: “Bu azadlıqlar kifayət qədər kövrəkdirlər, çünki müəllif hüquqlarına və mədəni müxtəlifliyə qəsddən tutmuş müəllif və naşirlərin məruz qaldıqları təhdid və təhqirlərə, eləcə də əlyazmalarının və kitabların məhv edilməsinə kimi çoxsaylı problemlərlə üzləşirlər. Saxtakarlıq və plagiat, bilərəkdən çap edilən yalan və saxta əsərlər bu azadlıqlara yeri doldurulmaz ziyan vurur. Əxlaqi baxımdan çirkin və hüquqi cəhətdən qanuna zidd olan bu hərəkətlər fiziki şəxslər, ayrı-ayrı fərdlər tərəfindən yerinə yetirilə bilir və bunlar müəllif hüquqlarını pozan və ya saxtakarlıq naminə özünü ifadəetmə azadlığından qəsdən istifadə edən müxtəlif ölkə vətəndaşları, söhbət sənaye mülkiyyətindən getdikdə isə, həm də hüquqi şəxslər ola bilər. Geniş mənada bu cür əməllər mədəni plagiat və ya mədəni dələduzluqdur. Söhbət intellektual oğurluqlardan və etnosun mədəni irsinin saxtalaşdırılmasından, onun mədəni ənənələrinin mənimsənilməsindən və ya yanlış inkar edilməsindən, başqa xalqın sərvətinə iddialardan getdikdə isə, plagiatçılıq və saxtalaşdırma məsələsi xüsusi əhəmiyyət kəsb edir”.

Söhbət əsnasında Kamran İmanov onu da vurğuladı ki, müasir mədəniyyət - ilk növbədə, qorunub saxlanması ali prioritet kimi qəbul edilən mədəni müxtəliflikdir və mədəniyyətlərin dialoqunu, qarşılıqlı fəaliyyətini nəzərdə tutur. Yəqin ki, mədəniyyətlərin tolerantlığının və bərabərhüquqluluğunun qarşılıqlı tanınmasında multikulturallığın əsası qoyulmuşdur. Eyni zamanda bir mədəniyyətin digərini əxz etməsi həmin mədəniyyətin zənginləşməsindən başqa bir şey deyildir. Bu, həm ayrı-ayrı fərdlər səviyyəsində, həm də müxtəlif etnoslar, xüsusən də bir coğrafi arealda yaşayan xalqlar səviyyəsində baş verir. Hər zaman müəllif adına həssas və diqqətli olan dünya, eyni zamanda, həm də əxzetmələrə imkan vermişdir. Müsahibimin fikrincə, söhbət, əgər belə demək mümkünsə, hansısa xalqın müəllifliyindən gedirsə, deməli, bu, ilk növbədə ona məxsus olan mədəniyyətin - yəni ənənəvi mədəni nümunələrin (folklorun) ənənəvi biliklər və müəllif əsərləri, başqa sözlə, qeyri-maddi mədəni irsdə öz əksini tapmış mədəni ənənələridir.

“Etnik ənənələrin, eləcə də müəllif əsərlərinin elementləri təbiidir, onların əxz edilməsinə yol verilə bilər, çünki onlar bilik və yaradıcılıq təcrübəsi ilə zənginləşdirilərək yeni yaradıcılığın və kreativliyin inkişafı üçün tramplin rolunu oynayırlar. Etnik ənənələrin, eləcə də müəllif əsərlərinin elementlərinin biliklə zənginləşdirmə çərçivəsində əxz edilməsinə də yol verilir. Bir şərtlə ki, mənbə göstərilməli, müəlliflik hüququ qaydaları çərçivəsində istinad olunmalıdır. Əxzetmə mənbəni və ya orijinalı nəzərə almadan mənimsənilməyə keçildiyi təqdirdə bu cür plagiat oğurluğa, yaradıcıların şərəf və ləyaqətinə xələl gətirən özünəməxsus uydurmaya çevrilir və mahiyyət etibarilə başqa xalqlardan oğurluq etməklə onların hüquqlarına xələl gətirir”, - deyə Kamran müəllim bildirdi. Bu cür plagiat, eyni zamanda, mənəvi terrordur, çünki o, həmin mənbələrin və onların yaradıcılarının mənəvi və psixoloji tapdanmasına, onların dəyərləri üzərində istehzaya, adət və ənənələrində təcəssüm olunmuş müqəddəs məfhumlar üzərində təhqirlərə, onları mənimsəməyə və ya məhv etməyə gətirib çıxarır: “Bu əməllərin həyata keçirilmə alətləri fiziki terror halında olduğu kimi, fiziki zorakılıq vasitələri deyil, bir qayda olaraq, saxtalaşdırmalar, uydurmalar və aldatmalardır”.

Kamran İmanovun sözlərinə görə, bu gün “Azərbaycanın mədəni ənənələrinin mənimsənilməsi üzrə erməni ənənəsi” məhz bu cür xarakter almışdır. Bu ənənənin indi də yaşadılması və yeni mənasız ifadələrlə “zənginləşməsi” ilə əlaqədar intellektual oğrulara və saxtakarlara bunu xatırlatmaq yerinə düşərdi ki, müasir erməni ədəbiyyatının banisi Xaçatur Abovyan hələ XIX əsrdə yazırdı: “Qədim və yeni dilin [erməni] əsas fərqi danışıq tərzindən və sintaktik strukturdan ibarətdir. Bu baxımdan qədim erməni dili [“qrabar”] Avropa dilinə, yeni erməni dili isə [“aşxarabar”] türk [Azərbaycan] dillərinə bənzəyir” (X.Abovyan, Naxaşaviq, Yerevan, 1940-cı il, erməni dilində). Bir sözlə, X.Abovyana görə müasir türkləşdirilmiş (azərbaycanlaşdırılmış) erməni dili yaranıb. X.Abovyanın işinin davamçısı Qazaros Ağayan isə öz növbəsində həmin əsrdə yazırdı: “... Türklər [azərbaycanlılar] onu [Koroğlunu] türk [azərbaycanlı], kürdlər kürd, ermənilər isə azərbaycanlılaşmış erməni hesab edirlər. Onun nəğmələrini türk [Azərbaycan] və kürd dillərində ancaq ermənilər oxuyur, digər xalqlar isə öz dillərində oxuyurlar” (Q.Ağayan, Seçilmiş əsərləri, Yerevan, 1939-cu il, erməni dilində). Bir sözlə, Q.Ağayana görə bizim Koroğlu “azərbaycanlılaşmış erməni” olmuşdur. Bu da azərbaycanlılaşdırmanın erməni etnosuna və onun istifadə etdiyi dilə obyektiv təsiri olub, sonradan Azərbaycan xalqının yaradıcılığının mənimsəyici, subyektiv “erməniləşdirilmə”sinə çevrilib.

Kamran İmanov bildirib: “Bu uydurmaları və mənimsənilməni mütləq qaydada müşayiət edən amillər də vardır. Hər şeydən əvvəl, bunlar intellektual oğurluqlara “bəraət qazandırmaq” məqsədi daşıyan ərazi iddiaları və bununla yanaşı tarixi-coğrafi uydurmalar, region üzrə qonşularının tarixini paralel şəkildə təhrif etməklə öz yalan tarixini formalaşdırmaqdır”.

Prezident İlham Əliyev 10 mart 2020-ci ildə altıncı çağırış Milli Məclisin ilk iclasındakı çıxışında qeyd etdi ki, “...biz Azərbaycan həqiqətlərini çatdırmalıyıq. Xüsusilə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı tarixi həqiqətləri çatdırmalıyıq. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Ona görə bizim arqumentlərimizə qarşı Ermənistan tərəfi heç bir ciddi arqument qoya bilmir, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiya. Bu, əslində, onların xislətidir. Onlar geniş şəbəkə çərçivəsində bəzi siyasətçiləri satın alırlar. Bu da heç kimə sirr deyil. Belə olan halda onların tarixi saxtakarlığına elə bil ki, bəraət qazandırılır... Mən Münxendə Kürəkçay sülh müqaviləsi haqqında deyəndən sonra bilirəm ki, Ermənistanda indi bu müqaviləni əzbərləyirlər. Orada açıq-aydın göstərilir ki, bu müqaviləni kim bağlayıb, nə vaxt bağlayıb və erməni xalqı haqqında orada, ümumiyyətlə, söhbət belə getmir... Rus imperiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir görəsən ki, orada indiki Ermənistan ərazisində toponimlərin əksəriyyəti Azərbaycan mənşəlidir...”

“Bəli, həqiqətlər bundan ibarətdir və bizim borcumuz onları hər imkan olduğu halda dünyaya çatdırmaqdan ibarətdir”, - deyə Kamran İmanov xüsusi vurğuladı.

Bu səbəblərdən Əqli Mülkiyyət Agentliyi 23 aprel ərəfəsində həm də görkəmli ispan yazıçısı Servantesin ölüm gününü anaraq, onun “Don bəzəyər də, ifşa edər də” sözlərini özünə deviz götürərək artıq ənənəyə çevrilmiş “Qədim mətnlər və klassik mənbələr ermənilərin saxtalaşdırılmalarını və uydurmalarını ifşa edir...” adlı konfrans keçirir.

Onu da qeyd edək ki, dövlət başçısının göstərişlərindən irəli gələn çevik, daha yığcam və daha məqsədyönlü struktur vasitəsilə sahələrin idarə edilməsi, şəffaflığın, səmərəliliyin və cavabdehliyin təmin olunması məqsədilə Əqli Mülkiyyət Agentliyi yaradılıb, onun mandatı həm müəlliflik hüquqları və əlaqəli hüquqlar sahəsini, həm də sənaye mülkiyyəti sahəsini əhatə edir. Agentliyin tabeliyində iki mərkəz - Patent və Əmtəə Nişanlarının Ekspertizası və Əqli Mülkiyyət Hüquqlarının Təminatı mərkəzləri yaradılıb, Respublika Elmi-Texniki Kitabxanası onun tərkibinə verilib.

Beləliklə, aparılmış islahatlar nəticəsində özündə vəhdət təşkil edən üçlük formulu: koqnitivlik, kreativlik və kommersiyalaşmanı birləşdirən özünəməxsus idarəetmə modeli aktuallaşmışdır.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə aparılan iqtisadi və institusional islahatların nəticəsində yaradılmış və bu modeli reallaşdıran publik hüquqi şəxs institutu öz töhfələrini verməkdədir.

Ötən il ərzində 387 müəllifin 834 əsəri qeydiyyatdan keçirilmiş və 834 şəhadətnamə verilmişdir, o cümlədən “Elektron xidmət” bölməsi vasitəsilə müəlliflərin müraciəti əsasında 32 əsər qeydiyyata alınmışdır. 1996-cı ildən 2020-ci il 1 yanvar tarixinədək agentlikdə bütövlükdə 12956 əsər və əlaqəli hüquqların obyektləri, o cümlədən “Elektron xidmət” bölməsi vasitəsilə 109 müəllifin 225 əsəri nəzərdən keçirilib qeydiyyata alınmışdır. 2019-cu ildə hüquqi və fiziki şəxslərdən onlarla müraciət daxil olmuş, həmin müraciətlərə müəllif-hüquq qanunvericiliyinin tələbləri nöqteyi-nəzərindən baxılmış, bir qismi agentliyin səlahiyyətləri çərçivəsində həll edilmiş, bir qismi isə aidiyyəti qurumlara göndərilmişdir.

Onu da qeyd etmək lazımdır ki, görülən tədbirlərin nəticəsi olaraq 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi kitab satışı sahəsində 61 faizdən 23 faizə, audio-video məhsul bazarında 90 faizdən 58 faizə, proqram təminatında 96 faizdən 72 faizə düşmüşdür.

Hüquqi maarifləndirilmə məqsədilə agentliyin təşkilatçılığı və iştirakı ilə 15-ə yaxın tədbir keçirilmiş, KİV-də 350-dən artıq informasiya, maarfləndirici və təbliğat xarakterli material dərc olunmuş, TV və radio kanallarında 35-dən çox veriliş və süjetlər göstərilmiş, agentliyin təşkil etdiyi tədbirlərdə ölkəmizi, xarici və beynəlxalq təşkilatları təmsil edən peşəkar mütəxəssislər, alimlər, beynəlxalq ekspertlər, qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən əqli mülkiyyət məsələlərinə dair 90-a yaxın prezentasiya və çıxışlar edilmiş, agentliyin nümayəndələri müxtəlif beynəlxalq tədbirlərdə 15-ə yaxın təqdimatla çıxış etmişlər.

2019-cu ildə 1630 nüsxədən çox kitab, kitabça və broşurlar buraxılmış, çoxsaylı maarifləndirici materiallar, o cümlədən müəllif-hüquq sahəsi üzrə beynəlxalq konvensiya və müqavilələr, milli qanunvericilik aktları, digər normativ aktlar Azərbaycan, rus və ingilis dillərində təkrar nəşr edilərək yayılmış, xüsusi kitab sərgiləri təşkil edilmişdir. “Patent könüllüləri” layihəsində müxtəlif ixtisaslı 41 nəfər könüllü iştirak etmiş, hazırda layihə iştirakçılarının bir neçəsi könüllü kimi agentliyin tabeliyində olan qurumlarda uğurla fəaliyyət göstərir.

Mədəni irsin qorunması və erməni plagiatına qarşı mübarizə tədbirləri ötən il də agentliyin diqqət mərkəzində olmuş, ermənilərin maddi və qeyri-maddi mədəni irs nümunələrimizə iddiaları növbəti dəfə təkzibedilməz elmi və tarixi faktlarla ifşa edilmişdir.

Sənaye mülkiyyəti sahəsində də agentlik təxirəsalınmaz işlər aparır, o cümlədən ixtiraçılıq və patent fəallığının artırılması üzrə tədbirlər davam edir, “vahid pəncərə” prinsipi, patent fəaliyyətinin sürətləndirilməsi və şəffaflığını təmin etmək məqsədilə yeni rəqəmsal xidmətlərin və informasiya sistemlərinin, PƏNAH sisteminin verdiyi imkanlar hesabına əqli mülkiyyət hüquqlarının daha dürüst və kütləviliyini artıran işlər tamamlanıb. Bununla yanaşı, ekspertizanın aparılma müddəti azaldılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin idarə qarşısında qoyduğu institusional vəzifələri, habelə dövlət başçısının ölkənin innovativ inkişafı ilə bağlı göstəriş və tapşırıqlarını əsas tutaraq, Əqli Mülkiyyət Agentliyi bəyan edir ki, əqli mülkiyyət innovasiyaların əsasını təşkil edir. Məhz bu səbəbdən əqli mülkiyyət hüquqlarının qorunması və təminatı investisiyaların cəlb edilməsi və innovasiyaların dəstəklənməsi üçün imkanlar yaradacaqdır. Və agentlik bütün əqli mülkiyyət istifadəçilərini bu hüquqlardan istifadə edərkən qorunma normalarına və ölkəmizin bu sahədəki beynəlxalq öhdəliklərinə ciddi əməl etməyə çağırır.

Bu il dünyanı öz cənginə alan koronavirus pandemiyası geniş şəkildə qeyd olunması ənənəyə çevrilmiş tədbirlərin keçirilməsində maneçilik yaradıb. Kamran İmanov bu məsələyə də münasibətini bildirdi və vurğuladı ki, Azərbaycan dövləti planetimizi bürüyən bu böhran vəziyyətindən minimal itkilərlə çıxmaq üçün əlindən gələni edir, infeksiyanın yayılması, koronavirusa qarşı mübarizə və karantin rejimi nəzərə alınmaqla səhiyyə sisteminin hazırlığı üçün bütün zəruri tədbirlər həyata keçirilir. Ölkəmizin test-müayinələrinin keçirilməsində və xəstəlik hallarının vaxtında aşkara çıxarılmasında liderlər sırasında olduğunu diqqətə çatdıran Kamran İmanov Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirdiyini, onu pandemiyaya qarşı mübarizədə nümunəvi hesab etdiyini söylədi. O dedi ki, ölkə rəhbərliyinin düşünülmüş və hadisələrin arzuolunmaz inkişafını qabaqlayan siyasətinin əsasında vətəndaşlarımıza qayğı və həssas münasibət durur. Prezident İlham Əliyevin dediyi kimi, bizim əsas vəzifəmiz xalqımızı, dövlətimizi qorumaqdır.

Söhbətimizin sonunda Kamran İmanov ümidvar olduğunu bildirdi ki, bir qədər sonra, koronavirus pandemiyası imkan verdikdə biz bütün tədbirlərimizi yüksək səviyyədə keçirəcəyik.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

## “24 aprel soyqırımı” erməni uydurmasıdır

# Erməni terrorizmi - dünyanı izləyən qara kabus

Terrorizm müasir dünyanın lənətidir, deyirlər. Erməni terrorizmi isə tarixin keçmiş dönəmlərindən başlayaraq 100 ildən çoxdur ki, bəşəriyyəti kabus kimi təqib etməkdədir. Kütləvi vahimə yaratmaq metodu kimi qətllərin xüsusi qəddarlıqla törədilməsi erməni terrorizminin xüsusi iş üslubudur. Eyni zamanda bu təşkilatlar çoxluqdan fərqli düşünüb terroru rədd edən üzvlərinə, onu maliyyələşdirməkdən boyun qaçıran ermənilərə qarşı amansızlığı ilə də seçilir.

Erməni terrorizminin sırf beynəlxalq miqyasda formalaşması 1885-ci ildə olmuşdur. İlk erməni siyasi partiyası “Armenakan”ın təsis edilməsi ilə başlanmışdı. Təşkilat yarandığı gündən mütəşəkkil, sistemli, planlı xarakterə malik beynəlxalq terrorçu qurum modeli idi.

Partiyanın üzvləri Osmanlı dövləti və Avropa ölkələri ilə yanaşı Rusiya və İran ərazilərində də fəaliyyət göstərirdilər. Partiyanın rəhbəri Fransanın Marsel şəhərinə mühacirət etmiş M.Portakalyan idi. O, Marseldə silah alınması üçün pul toplanması ilə məşğul olan “Erməni vətənpərvərlik cəmiyyəti”ni təşkil etmişdi. Alınmış müasir silahlar Vanda və onun ətraflarında yaşayan ermənilər üçün nəzərdə tutulurdu. Orada onlara təxribat-terror müharibəsinin aparılması sənətini öyrədir və “dost dövlətlərin göstərdiyi dəstəyə arxalanaraq ümumi üsyana” hazırlayırdılar.

1887-ci ildə Cenevrədə Nazarbekyan tərəfindən “Qnçak” (“Zəng”) partiyası yaradıldı. Bu partiya Osmanlı dövlətinə qarşı mübarizənin əsas metodunun terror olduğunu öz proqramında bəyan etmişdi. Partiyanın proqramının 4-cü bəndində yazılırdı: “...Nəzərdə tutulmuş hədəflərə nail olmaq üçün inqilabçı hökumət aşağıdakı metodlara müraciət etməlidir: təbliğat, təşviqat, terror, təxribatçı təşkilatların yaradılması, fəhlə-kəndli hərəkatının inkişafı və s.”.

Erməni terrorizminin ən dəhşətli təsisatlarından olan başqa bir siyasi qurumun - Erməni İnqilabi Federasiyasının, yəni “Daşnaksütyun”un yaradılması da özünü çox gözlətmədi. Bu təşkilat 1890-cı ildə Tiflisdə təsis olundu. “Daşnaksütyun”un mərkəzi çap orqanı da vardı və “Droşak” (“Bayraq”) adlanan qəzet 1891-ci ildən 1930-cu ilə qədər Cenevrədə çap olunmuşdu.

Digər erməni siyasi partiyaları kimi, “Daşnaksütyun” da öz fəaliyyətinin başlanğıcından bu təşkilatın ideoloqlarının “böyük Ermənistan” adlandırdığı “dənizdən-dənizə vahid, müstəqil Ermənistan” yaradılması üçün türklərin siyasi, ictimai, dövlət xadimlərinə qarşı mübarizənin əsas forması olaraq terroru önə çəkirdi.

“Daşnaksütyun” qısa müddətdə Cənubi Qafqaz şəhərlərində, İranda, Türkiyədə və Avropa ölkələrində özünün özəklərini yaratdı. İranda və başqa ölkələrdə sonralar bir çox dövlətlərin ərazisində çoxsaylı terror aksiyaları yerinə yetirəcək döyüşçülərin bazalarını formalaşdırdı.

“Daşnaksütyun”un tədqiqatçılarından M.Varandyanın K.S.Papazyana istinadən yazdığı kimi, “Rusiya xalqçıları və italyan karbonariləri daxil olmaqla, bəlkə heç vaxt “Daşnaksütyun” kimi terror aktlarının həyata keçirilməsi sahəsində belə zəngin təcrübəyə malik inqilabçı partiya olmayıb. Bu partiya çətin şəraitdə ən amansız terrorçular, həmçinin qisas almaq üçün tapança, bomba və xəncərdən bacarıqla istifadə edən yüzlərlə peşəkar hazırlayıb”.

Bu qeydlərdən də göründüyü kimi, ilk erməni siyasi partiyaları müxtəlif ölkələrdə yaradılırdı və bu partiyaların hər birinin proqramında terror məqsədə doğru vasitə kimi təsbit edilirdi. Partiyaların fəaliyyətinin maliyyələşdirilməsi, bir qayda olaraq, təhdidlər və qorxutma (“könüllü ianə”) yolu ilə pul yığılması hesabına həyata keçirilirdi. Bu terror təşkilatlarının döyüş dəstələri və fəalları üçün silah, faktiki olaraq, dünyanın bir çox ölkəsində toplanılan “könüllü ianələr”lə alınırdı.

Beləliklə, XIX əsrin ikinci yarısında aparıcı dövlətlərin regionda qurduqları geopolitik oyunlar, həyata keçirdikləri siyasət terrorizmin bəşəriyyəti bu günə qədər təhdid edən xüsusi bir növünün - erməni terrorizminin formalaşmasına gətirib çıxardı.

Təcavüzkar separatizmə və milli dözümsüzlüyə əsaslanan erməni terrorizmi həmin illərdən bəri silahı yerə qoymayıb. Etnik təmizləmə, kütləvi talanlar və çoxsaylı insan tələfatları ilə müşayiət olunan sonsuz qəddarlıqlarını, şəraitdən asılı olaraq həm aşkarda, həm gizlində öldürmək qabiliyyətini hər fürsətdə nümayiş etdirməyə çalışıb və buna nail olub.

1972-ci ildə “Daşnaksütyun” partiyasının Vyanada keçirilən qurultayı zamanı “Erməni soyqırımı ədalət kommandosları” qrupunun fəaliyyətə başlaması qərarı bütün dünyada erməni terrorizminin yeni dalğasının başlanğıcı idi. Bu təşkilatın üzvləri 1980-1982-ci illər ərzində Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirmişdilər.

1975-ci ildə isə “Erməni gizli azadlıq ordusu” (ASOA) və “Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu” (ASALA) səhnəyə çıxdı. Hər iki təşkilat Beyrutda yaradılmışdı. ASOA fəaliyyətinin ilk 6 ilində dünyanın müxtəlif ölkələrində 19 türk diplomatının qətlinə səbəb olan teraktlar həyata keçirmişdi.

Təlim-məşq bazaları Suriyada yerləşən ASALA-nın məqsədi isə ermənilərin “böyük Ermənistan” xülyasını Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ ərazilərində reallaşdırmaqdır.

ASALA 1980-ci ilin aprelində PKK ilə birgə terror aksiyalarının keçirilməsinə dair razılığa gəlmiş və bu niyyət Livanda rəsmiləşdirilmişdir.

1979-cu ildə yaradılmış “Erməni azadlıq cəbhəsi” terror təşkilatı da ASALA-nın tərkib hissəsi sayılır.

1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılaraq, 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı həyata keçirmiş “Orli qrupu”, 1988-ci ildə Moskvada yaradılan, ASALA ilə sıx əlaqədə çalışan, keçmiş sovet məkanında terrorçuların fəaliyyəti üçün onları saxta sənədlərlə təmin edən, Dağlıq Qarabağa silah və muzdlu döyüşçülərin ötürülməsində yaxından iştirak edən “Erməni birliyi”, habelə 1991-ci ildə Fransada təsis olunmuş “Erməni azadlıq hərəkatı” (AOD) da ötən əsrin sonlarında beynəlxalq erməni terrorçu şəbəkəsinə daxil olan qruplardandır.

2001-ci ilin fevralında isə ASALA tərəfindən “Geqaron” terror təşkilatı yaradılmış, Cənubi Qafqaz və Orta Asiya ərazilərində fəaliyyət göstərən türk mənşəli siyasi liderlərə, diplomat və biznesmenlərə qarşı terror aktlarının həyata keçirilməsi bu təşkilatın əsas məqsədi kimi müəyyənləşdirilmişdir.

2001-ci il aprel ayının 29-da Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılmış “Apostol” təşkilatının məqsədi də Türkiyə və Azərbaycan ərazilərində terror aktları həyata keçirməkdir.

Ötən əsrin 80-ci illərinin sonlarından etibarən erməni terrorizmi keçmiş SSRİ məkanında da meydana çıxdı və sürətlə irəliləməyə başladı. Azərbaycan torpaqları hesabına “birləşmiş” erməni dövlətinin yaradılması ideyasını - “Miatsum”u (ermənicə - birləşmə) irəli sürən ermənilər Qarabağın Ermənistana birləşdirilməsi, Ermənistan və Qarabağda yaşayan azərbaycanlıların öz ata-baba torpaqlarından qovulması üçün hərəkətə keçdilər.

Ermənistan xüsusi xidmət orqanları və erməni terror təşkilatları Azərbaycanın müxtəlif ərazilərində - Bakıda, Gəncədə və digər şəhərlərimizdə dinc əhaliyə qarşı təxribat və terror aktları həyata keçirməyə, sənaye obyektlərini və nəqliyyat vasitələrini hədəfə almağa başladılar.

Erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri terror aktları, aparılan hərbi əməliyyatlar nəticəsində on minlərlə soydaşımız həlak oldu, Azərbaycan Respublikasının 20 faiz ərazisi işğal edildi, bir milyona yaxın vətəndaşımız qaçqın düşdü. Ermənilər bəşər tarixinin ən dəhşətli cinayətlərindən birini - azərbaycanlılara qarşı Xocalı soyqırımını törətdilər. Bu soyqırımı aktının həyata keçirilməsi zamanı yol verilən ağlasığmaz qəddarlıqlar erməni terrorizminin əsrlərdən bəri qorunan mahiyyətinin daha bir təzahürü idi. Bu mahiyyət onlara o qədər doğmadır ki, SSRİ-nin süqutundan sonra müstəqillik qazanmış Ermənistan Respublikası terroru özünün dövlət siyasətinin əsas tərkib hissəsinə çevirmişdir. Çoxsaylı faktlar, məhkəmə materialları, müxtəlif illərdə Azərbaycanın dinc əhalisinə qarşı törədilən terror aktları bunları sübuta yetirir.

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.



# Pasxa bayramı münasibəti ilə Gəncədə rus icmasının üzvlərinə sovqat paylanıb

Nazirlər Kabineti yanında Operativ Qərargahın tətbiq etdiyi karantin rejiminə uyğun olaraq Gəncədə tənha yaşayan ahıl şəxslərə və aztəminatlı ailələrə yardımlar davam edir.





Yardım aksiyası Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə həyata keçirilir. Yardım paylanarkən Gəncə və ölkəmizin qərb bölgəsi üzrə rus icmasının üzvləri də diqqətdən kənarda qalmayıblar. Belə ki, Pasxa bayramı münasibəti ilə şəhər icra hakimiyyəti tərəfindən rus icmasının aztəminatlı üzvlərinə və Aleksandr Nevski Rus Pravoslav kilsəsində xidmət göstərən, dini ayinləri icra edən şəxslərə də sovqat paylanmışdır.

Sovqat paylanarkən Aleksandr Nevski Rus Pravoslav kilsəsinin baş keşişi Varfolomey Denis Sotnikov deyib ki, Azərbaycan tolerant dəyərlərə sadiq ölkədir. Bu gün Azərbaycanda xristian tarixi abidələri, kilsələri qorunub saxlanılır. Ölkə rəhbəri səviyyəsində digər xalqların və dinlərin nümayəndələrinə, o cümlədən də onlara xüsusi qayğı ilə yanaşılır. Keşiş göstərilən diqqətə görə ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya öz minnətdarlığını bildirmişdir.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# "Azercell" "Paycell" xidməti üzrə göndərilən sorğular üçün xidmət haqqını dayandırır

## Lider mobil operator koronavirus (COVID-19) infeksiyası ilə mübarizə çərçivəsində növbəti addımı atır

Yerli bazarın lider mobil operatoru "Azercell Telekom" MMC koronavirus pandemiyası ilə əlaqədar ölkə ərazisində elan edilmiş xüsusi karantin dövründə abunəçilərinə dəstək olmağa davam edir. "Azercell" aprel ayının 10-dan etibarən "Paycell" xidməti üzrə göndərilən sorğular üçün xidmət haqqı tətbiqinin müvəqqəti olaraq dayandırıldığını bəyan edib. Xatırladaq ki, "Paycell" xidməti çərçivəsində istənilən Fakturasız Xətt (SimSim) nömrənin balansına 0.2 AZN, 0.5 AZN və ya 1 AZN vəsaiti hədiyyə qismində yükləmək mümkündür. Bu təklifdən yararlanmaq üçün SMS mətnində vəsaiti qəbul edən nömrəni qeyd etməklə, müvafiq olaraq 9204, 9200 və ya 9202 qısa nömrələrinə mesaj göndərmək kifayətdir.

## B İ L D İ R İ Ş

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi publik hüquqi şəxsi (DOST Agentliyi) tərəfindən 07 aprel 2020-ci il tarixdə kotirovka sorğusu metodu ilə elan edilmiş Agentliyin inzibati binasında sanitariya-epidemioloji işlərin satın alınması üzrə müsabiqənin qalibi "Sanitariya Epidemioloji Xidmətlər" MMC olmuşdur.

Qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Xalq qəzeti"nin 29 mart 2020-ci il tarixli nömrəsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına kimyəvi reagentlər və mal-materialların elektron qaydada satın alınması məqsədilə dərc edilmiş tenderində iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 04 may 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 05 may 2020-ci il saat 18:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC "Sutikinti" Müəssisəsinin Təchizat şöbəsinə (Əlaqə tel: +99455 510-71-93) müraciət edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Vahid elektron satınalma Portalında 29.11.2019-cu il tarixdə elan olunmuş ""Aztelekom" MMC-nin inzibati binasında və struktur bölmələri, o cümlədən kənd EATS-nin cari təmir-tikinti işlərinin satın alınması" məqsədilə keçirilən açıq tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq baş tutmamış hesab olunsun.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Şəki Suvarma Sistemləri İdarəsi tərəfindən LOT üzrə əsaslı təmir işlərində lazım olan tikinti materiallarının satın alınması məqsədilə 12.03.2020-ci il tarixdə "Azərbaycan" qəzetində açıq tender keçirilməsi ilə bağlı elan verilmişdir. Keçirilmiş açıq tenderdə LOT üzrə "Dinar" firması qalib elan edilmişdir.

Qalib gəlmiş təşkilatla 20.04.2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC-nin Tender komissiyası tərəfindən 11.03.2020-ci il tarixdə "Müxtəlif tipli dayaqların və müxtəlif növ sayğacların" satın alınması məqsədilə elan edilmiş iki LOT-dan ibarət açıq tenderin birinci lotu (Müxtəlif tipli dayaqların satın alınması) üzrə müraciət edən iddiaçıların sayı üçdən az olduğu üçün Tender komissiyasının qərarı ilə tenderin davamından imtina olunur.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Mərkəzi Bankında maliyyə bazarlarına nəzarət üzrə Vahid Nəzarət və Monitorinq Sisteminin yaradılması ilə bağlı tender elanı

Azərbaycan Respublikası Mərkəzi Bankı maliyyə bazarlarına nəzarət üzrə avtomatlaşdırılmış Vahid Nəzarət və Monitorinq Sisteminin yaradılması ilə bağlı açıq tender keçirir.

Tender proseduru 27 may 2020-ci il saat 15:00-da Azərbaycan Respublikasının Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün yazılı müraciət;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış (xarici iddiaçılar tərəfindən məlumat);*
- *iki nüsxədə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 13 iyul 2020-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən formada);*
- *iddiaçının müvafiq sahə (analitik hesabatlıq və avtomatlaşdırılmış informasiya sistemlərinin yaradılması və tətbiqi) üzrə ən azı 2 (iki) illik iş təcrübəsini əks etdirən məlumatlar (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu);*
- *müvafiq sahə üzrə ən azı 5 (beş) sertifikatlaşdırılmış mütəxəssisin olmasını təsdiq edən sənədlərin surəti;*
- *iddiaçının ixtisas uyğunluğuna dair tenderin əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 22 may 2020-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 13 may 2020-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasında əlaqələndirici şəxsə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İddiaçılar tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikasının Mərkəzi Bankının aşağıdakı hesabına 500 (beş yüz) manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Hesab №: AZ25NABZ01701190000000001944**
**M/h: AZ74NABZ01451700000000001944**
**Kod: 501004**
**VÖEN: 9900071001**

Xarici iddiaçılar iştirak haqqını ödəniş gününə Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi məzənnəsi ilə ABŞ dollarında aşağıda göstərilmiş hesaba ödəyə bilərlər: Correspondent Bank: FRNYUS33

**Federal Reserve Bank of New York**
**corr. account number: 021088221 AZER**
**account №: AZ25NABZ01701190000000001944.**

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Maliyyə bazarlarına nəzarət sistemi tender üzrə satınalma müqaviləsi imzalandığı gündən ən geci 2 (iki) il müddətində təhvil verilməlidir.

Qiymətləndirmə meyarları: qiymət və texniki amillər.

Tenderdə iştirak etmək istəyən hər bir şəxs iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilər. Tenderin əlaqələndirici şəxsi: Elman Muradov (İnformasiya texnologiyaları departamentinin əməkdaşı). Telefon: 493-11-22 (499), faks: 493-55-41, elektron poçt ünvanı: elman_muradov@cbar.az.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Abşeron DOST Mərkəzinin təmir-quraşdırma işləri üçün layihə işlərinin satın alınması məqsədilə keçirilən təkliflər sorğusunda "AM.M Line" MMC qalib olmuşdur.

Qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# FHN-in maddi-texniki bazası daim yenilənir

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bilavasitə diqqət və qayğısı sayəsində Fövqəladə Hallar Nazirliyinin (FHN ) maddi-texniki bazası daim yenilənir, yanğınsöndürmə, xilasetmə və digər təyinatlı ən müasir texnika və avadanlıqlar ölkəmizə gətirilərək uğurla tətbiq olunur.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, bu günlərdə Fövqəladə Hallar Nazirliyinin sifarişi ilə Yaponiyanın "Nissan" şirkətinin istehsalı olan "Patrol Safari" markalı avtomobillərin bazasında yığılmış xüsusi xilasetmə avtomobilləri ölkəmizə gətirilib. Nazirliyin müvafiq xilasetmə qurumlarının ixtiyarına veriləcək 11 ədəd xüsusi xilasetmə avtomobili qəza-xilasetmə işlərində istifadə olunması üçün nəzərdə tutulub.

Yüksək temperatur və rütubət olan ərazilərdə istifadə üçün nəzərdə tutulan bu avtomobillər, həmçinin texniki xidmət baxımından rahatlığı, təhlükəsizliyi, etibarlılığı və əlçatanlığı ilə fərqlənir. Avtomobillər keyfiyyətin idarə edilməsi üzrə ISO 9001:2015 standartlarına uyğundur. Avtomobillərdə ən mürəkkəb xilasetmə əməliyyatlarını həyata keçirməyə imkan verən müasir xilasetmə avadanlıqları ilə yanaşı, xüsusi nəfəs aparatı, kimyəvi istehsalda, təhlükəli tullantıların təmizlənməsində və pestisid tətbiqində təhlükəli materiallardan qorunmaq üçün tamamilə kapsullaşdırılmış xüsusi geyim, qatlana bilən xərək, ilk yardım çantası və digər zəruri avadanlıqlar da yerləşdirilib.

# Beynəlxalq aləm

## Almaniya və Rusiyada məişət zorakılığı artır



Koronavirusun pandemiyası fonunda Almaniyada məişət zorakılığının artması müşahidə edilir. Bu barədə Ailə, Qadın və Gənclər Məsələləri Nazirliyinin rəsmi nümayəndəsi Frantsiska Giffay məlumat vermişdir.

Giffay qeyd etmişdir ki, ötən həftə "Qadınlara qarşı zorakılıq" ümumalman telefon xəttinə məişət zorakılığı ilə əlaqəli müraciətlərin sayı iki həftə əvvəllə müqayisədə 17,5 faiz artmışdır. Halbuki o vaxtadək 2020-ci ildə müraciətlərin sayı 2019-cu ilin eyni dövründə olduğu kimi idi.

Son dövrdə qadınlara qarşı zorakılıq hallarının sayının artması Rusiyada da nəzərə çarpır. Məlumata görə, keçən ay qadınlar üçün ümumrusiya etimad telefonuna edilmiş zənglərin sayı fevral ayına nisbətən 24 faiz artmışdır (2537 zəngə qarşı 2050). Dövlət Dumasının bir qrup qadın deputatı Baş Nazirin müavini Tatyana Qolikovadan zorakılıq qurbanlarını müdafiə etmək üçün təxirəsalınmaz tədbirlər görməyi xahiş etmişdir. Məişət zorakılığı qurbanları üçün kifayət qədər sığınacaqların təmin edilməsi, polis işçilərinin məişət zorakılığı barədə hər hansı məlumata dərhal reaksiya verməsi, zorakılıq qurbanlarının koronavirusla mübarizə ilə əlaqədar karantin tədbirlərini pozmasına görə məsuliyyətə cəlb edilməməsi təklif olunmuşdur.

## Belarusda 20-dən çox xokkeyçi koronavirusa yoluxub



Belarusun "Neman" klubunun 23 xokkeyçisinə koronavirus diaqnozu qoyulmuşdur. Bu barədə yerli KİV xəbər verir.

Virus hücumçu Nikita Bastırkin, qapıçı Nikita Moiseenko və gənc komandanın 17 oyunçusunda aşkarlanmışdır. İlkin məlumata görə, gənc xokkeyçiləri istirahət mərkəzində təcrid etmək planlaşdırılır.

Bundan başqa, virusa klubun dörd fin legioneri - Valtteri Hietanen, Yoonas Hurri, Sami Yekunen və Timo Hiltunen də yoluxmuşdur.

Aprelin 21-də Aleksandr Lukaşenkonun xokkey komandasının oyunçusu Dmitri Meleşkonun koronavirusa yoluxduğu məlum olmuşdur. Dövlət başçısının mətbuat katibi Natalya Eysmont bildirmişdir ki, Meleşko özünü yaxşı hiss edir və təcrid rejiminə keçmək niyyətində deyil.

## Parislilər polis zorakılığına etiraz edirlər

Parisdə polis zorakılığına qarşı etiraz aksiyaları davam edir. Bu barədə yerli KİV xəbər verir.

Paytaxtın ətrafındakı Vilnev-la-Qaren qəsəbəsində nümayişçilər polisə yandırıcı maddələr atmışlar. Buna cavab olaraq asayiş keşikçiləri gözyaşardıcı qazdan istifadə etmişlər.

Nanter və Anyer-sür-Sen qəsəbələrində aksiya iştirakçıları zibil qutularını və avtomobilləri yandırmışlar. İğtişaşlar One-su-Bua və Sen-Deni yaşayış məntəqələrini də bürümüşdür.

## Dünya "aclıq pandemiyası" həddindədir



Yeni tip koronavirusun yayılması ilə əlaqədar dünya "aclıq pandemiyası"nın astanasındadır. Bu barədə Dünya Ərzaq Proqramının icraçı direktoru Devid Bizli məlumat vermişdir.

Bizli qeyd etmişdir ki, mütəxəssislərin fikrincə, münaqişə zonalarında hər gecə 821 milyon nəfər ac yatmağa gedir. Onun dediyinə görə, ərzaq böhranları barədə bu yaxınlarda açıqlanmış qlobal hesabat göstərir ki, 135 milyon nəfər kritik aclıq səviyyəsi ilə üzləşə bilər: "Bu o deməkdir ki, Yer üzündə 135 milyon nəfər aclıq həddinə yaxınlaşır. Dünya Ərzaq Proqramının təhlillərindən aydın olur ki, koronavirus səbəbindən 2020-ci ilin sonunadək daha 130 milyon nəfər aclıq həddində ola bilər. Bu, ümumilikdə, 265 milyon nəfər deməkdir".

Bizli xəbərdarlıq etmişdir ki, koronavirus üzündən aclıq 36 ölkəni əhatə edə bilər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7375
Sifariş 931
Qiyməti 40 qəpik